# TARİXİ ZƏFƏRİN ÜÇÜNCÜ İLİNDƏ






“Biz bu gün buradayıq, Xankəndidəyik, Xankəndinin mərkəzindəyik, Azərbaycan Gerbi, Azərbaycan Bayrağı altında”.

## PREZİDENT DAHA BİR VƏDİNƏ ƏMƏL ETDİ

Hər zaman “Sözümüz imzamızdır” söyləyən Prezident İlham Əliyev 2020-ci ilin 8 noyabrında bir daha sözünün sahibi olduğunu nümayiş etdirdi. O, Şuşanın azadlığa qovuşması xəbərini Şəhidlər Xiyabanından televiziya vasitəsilə xalqına çatdırmaqla, müqəddəs ruhlar qarşısında da hesabat vermiş oldu.

## 44 GÜNÜN QƏLƏBƏ XRONOLOGİYASI

Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun üç kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun doqquz kəndi, Şuşa şəhəri, Laçın rayonunun üç kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda Bartaz, Sığırt, Şükürataz yüksəklikləri və daha beş adsız yüksəklik azad olunub.

SƏHİFƏ 8-9-da


# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

8 NOYABR ÇƏRŞƏNBƏ 2023 | 43 (4144) Qiyməti - 40 qəpik www.kaspi.az

‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB





## ZƏFƏR BAYRAMI - AZƏRBAYCAN XALQININ QÜRUR YERİ



# ƏSRİN QƏLƏBƏSİ!

Tarixi Zəfərlə tək ərazi bütövlüyümüzü, suverenliyimizi, millət olaraq qürurumuzu bərpa etmədik. Həm də kimlərin bizim üçün dost, kimlərin isə sözdə dost olduğunu görmək imkanı qazandıq.

## Vətənə sevgi ilə xidmət edən Sahib

### QÜRUR YERİMİZ OLAN ŞƏHİD

Kiçik yaşlarından vətənpərvərliyi ilə seçilib, “Hərbçi olacam”, - deyib. Söhbət Xocavənd istiqamətindəki döyüşlərdə şəhid olan baş leytenant Sahib Daşdəmirovdan gedir.

### “MƏN OLAN YER SAKİTLİKDİR”

“Hər dəfə cəbhədə gərginlik olanda, maraqlanırdıq, həmişə də “mən olan yer sakitlikdir, narahat olmayın”, - deyirdi. Şəhid olduğu döyüşdən öncə də dedi ki, biz tərəf sakitlikdir”.

Səhifə 7-də

BAŞ REDAKTORDAN

## Zəfərimiz mübarək!

Qələbə xəbərlərinin paylaşıldığı tvitlərlə başlayıb Xankəndidə bayrağımızın ucaldılması ilə məntiqi sonluğuna çatan bu Zəfər daim anılacaq. Biz hər 8 Noyabr günü gələndə qələbəmizin necə böyük dəyərə malik olduğunu bir daha dərk edəcəyik!
Zəfərimiz mübarək!

Səhifə 3-də



İlham Quliyev

## KİM NƏ ƏKİRSƏ, ONU DA BİÇİR

Azərbaycan artıq özünün dostlarını, müttəfiqlərini çətin gündə ona göstərilən münasibət əsasında seçir. Beynəlxalq səviyyədə əlaqələrini bu prinsip əsasında qurur. Ən başlıcası isə, seçimlərimizə, yanaşmalarımıza kimsə irad bildirə, bizləri dövlət olaraq qınaya bilmir. Çünki ortada üç illik reallıq, təcrübə var.



## QURURUQ, YARADIRIQ, YAŞADIRIQ...

Zəfərimizdən sonra millətimizin özgüvəni qayıdıb, gücünə, potensialına olan sarsılmış inamı bərpa olunub. Artıq gələcəyə qaranlıq keçmişdən yox, nurlu sabahdan baxırıq. Qururuq, yaradırıq, yaşadırıq...
Zəfər həm də tarixi torpaqlarımızın simasını dəyişir.

SƏHİFƏ 4-də

# PREZİDENT KƏLBƏCƏR VƏ ŞUŞADA



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər rayonuna və Şuşaya səfər ediblər. Səfər zamanı dövlət başçısı bir sıra açılışlar edib, tapşırıqlarını verib.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev noyabrın 7-də Kəlbəcər rayonunun Vəngli kəndində olublar. Qeyd edək ki, işğal dövründə ermənilər növbəti vandallıq aktı nümayiş etdirərək, azərbaycanlıların şəxsi avtomobillərinin nömrələrindən lövhə düzəltmişdilər. Prezident İlham Əliyev lövhənin sökülməsi ilə bağlı tapşırıq verib.

### 23 BİNADAN İBARƏT YAŞAYIŞ KOMPLEKSİ İLƏ TANIŞLIQ

Prezident və birinci xanım daha sonra Şuşaya gəliblər. Şuşa şəhərində 23 binadan ibarət yaşayış kompleksində aparılan tikinti işləri ilə tanış olublar. Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlət başçısına və birinci xanıma görülən işlər barədə məlumat verib.

Bildirilib ki, 23 binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 8 hektara yaxındır. Burada 8 binanın tikintisinə ötən il iyulun 1-də, 15 binanın inşasına isə sentyabrın 1-də başlanılıb. Kompleksin tikintisinin bu ilin sonunda başa çatdırılması planlaşdırılır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva hazır mənzillərdə yaradılan şəraitlə tanış oldular.

Məlumat verilib ki, yaşayış kompleksində ümumilikdə 450 mənzil istifadəyə veriləcək. Burada 28 birotaqlı, 195 ikiotaqlı, 190 üçotaqlı, 30 dördotaqlı və 7 beşotaqlı mənzil olacaq. Mənzillərin əksəriyyəti keçmiş məcburi köçkünlərin istifadəsinə veriləcək. Üçmərtəbəli və beşmərtəbəli binalardan ibarət kompleksdə sakinlərin rahat yaşayışı üçün hər cür şərait yaradılacaq. Keçmiş məcburi köçkünlərin bu binalara köçürülməsinə 2024-cü ilin birinci rübündə başlanılacaq. Qeyd edilib ki, ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək.



## PREZİDENT VƏ BİRİNCİ XANIM “QIZLAR GİMNAZİYASI”NDA

Prezident və birinci xanım Şuşa şəhərində “Qızlar gimnaziyası” tarixi abidə binasında həyata keçiriləcək işlərlə də tanış olublar.

Bildirilib ki, Şuşada müstəqil qız məktəbi 1875-ci il oktyabrın 26-da Şuşa əhalisinin təşkil etdiyi “Xeyriyyə cəmiyyəti” tərəfindən təsis olunub. Dini etiqadından və mənşəyindən asılı olmayaraq, bütün qızlara burada təhsil almaq imkanı yaradılmışdı. Tədris planına rus dili, hesab, ana dilində oxuma, yazma, hüsnxət, rəsm, rəsmxət, ümumi coğrafiya, tarix, ölkəşünaslıq daxil idi. Eyni zamanda, məktəbdə milli mahnılar öyrədilir, təbiət, tarix və fizikadan dərs verilirdi. Məktəbdə təhsil ödənişli olsa da, kasıb ailələrin övladları təhsil haqqından azad idilər. Əlavə təhsil haqqı verənlərə fransız və alman dilləri də tədris edilir, musiqi öyrədilirdi. Qızların rus dilində təhsilinə diqqəti artırmaq və xərcin bir qismini xəzinədən ödəmək şərti ilə Şuşa qız məktəbi 1894-cü ildə Şuşa Marinski qız məktəbi adını aldı və dördsinifli məktəbə çevrildi. Məktəb 120 şagirdlə fəaliyyətə başladı. Artıq 1895-1896-cı tədris ilində burada 147 qız təhsil alırdı. Bu məktəbin təşkili azərbaycanlı qızların da rus dilində təhsilinə şərait yaratmışdı. Şuşa Marinski qız məktəbi qadınların təhsili sahəsində, azərbaycanlı qızların dünyəvi təhsil almasında mühüm rol oynayıb. 1894-cü ildə Şuşada iki şəxsi qız məktəbinin əsasında Müqəddəs Mariya qız məktəbi yaradılmış, bununla da azərbaycanlı qızların Avropa təhsilinə yolları açılmışdı.

Qeyd edildi ki, bina sovet dövründə internat məktəbi kimi də fəaliyyət göstərib. Gələcəkdə buranın dekorativ tətbiqi sənət mərkəzi və mədəni sahələr üzrə inzibati bina kimi istifadə olunması planlaşdırılır.



## QALA ÜZƏRİNDƏKİ ŞUŞA YAZISI BƏRPA EDİLİB

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində Qala divarına və ətraf əraziyə də baxış keçiriblər.

Bildirilib ki, təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan Şuşa şəhəri ilk dövrlərdə Şuşa adı ilə yanaşı, xanın şərəfinə Pənahabad da adlandırılırdı. Sonrakı dövrdə şəhər sadəcə Qala adlandırılıb. Bir müddət sonra xalq qalanı Şuşa qalası, sonrakı dövrdə isə sadəcə Şuşa adlandırıb. Şuşa qalasının üç əsas qapısı var idi: Gəncə, İrəvan və Ağoğlan qapıları. Hər üç qapının adı tarixi mənbələrdə tez-tez xatırlanır, həmçinin onlar Şuşanın XIX əsrdə çəkilmiş bütün Baş planlarında qeyd edilir. Şəhər işğaldan azad edildikdən dərhal sonra tarixi Şuşa qalasında bərpa işləri görülüb. Qala üzərindəki Şuşa yazısı bərpa edilib.







## ŞUŞADA 1 NÖMRƏLİ TAM ORTA MƏKTƏBİN AÇILIŞI OLUB

Prezident və birinci xanım Heydər Əliyev Fondu tərəfindən Şuşada Pənahəli xan küçəsində yerləşən bir sıra binalarda həyata keçiriləcək bərpa və yenidənqurma layihələri ilə tanış olublar.

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma görüləcək işlər barədə məlumat verib. Bildirilib ki, Pənahəli xan küçəsindəki bir sıra binaların bərpası və yenidən qurulması yüksək səviyyədə həyata keçiriləcək.

Prezident və birinci xanım həmçinin Şuşa şəhərində peşə məktəbinin və kollecin binasına baxıblar, Şuşa şəhəri 1 nömrəli tam orta məktəbin açılışında iştirak ediblər. Heydər Əliyev Fondu tərəfindən Mamayı məscidində aparılan bərpa işləri ilə tanış olublar. Həmçinin, İsa bulağına da baş çəkiblər.



# HƏRBÇİLƏRİN MAAŞI ARTIRILIB

**Prezident İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin tərkibinə daxil olan strukturlarda hərbi xidmət keçən qulluqçuların vəzifə maaşlarının artırılması ilə bağlı bir sıra fərmanlar imzalayıb.**

Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları artırılıb. Prezident İlham Əliyevin imzaladığı Fərmanla Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları orta hesabla 20 faiz artırılıb. Nazirlər Kabineti Fərmandan irəli gələn məsələləri həll etməli, Müdafiə Nazirliyi və Maliyyə Nazirliyi Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görməlidir. Fərman 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.



### SƏFƏRBƏRLİK XİDMƏTİ

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları da orta hesabla 20 faiz artırılıb. Fərmana əsasən, Azərbaycan Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll edəcək. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görəcəklər. Bu Fərman 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.



## DÖVLƏT SƏRHƏD XİDMƏTİ

Dövlət Sərhəd Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları artırılıb. Fərmanla Dövlət Sərhəd Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları orta hesabla 20 faiz artırılıb. Nazirlər Kabineti Fərmandan irəli gələn məsələləri həll etməli, Dövlət Sərhəd Xidməti və Maliyyə Nazirliyi Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görməlidir. Fərman 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

## DAXİLİ QOŞUNLAR, XÜSUSİ TƏYİNATLI QÜVVƏLƏR

Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları orta hesabla 20 faiz artırılıb. Fərmana əsasən, Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll edəcək. Daxili İşlər Nazirliyi və Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görəcəklər. Bu Fərman 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.



Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin hərbi qulluqçularının vəzifə maaşları da artırılıb. Fərmanla Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları orta hesabla 2,1 dəfə artırılıb.

BAŞ REDAKTORDAN
İlham Quliyev
ilhamquliyev@kaspi.az



# Zəfərimiz mübarək!

Zəfərimizin üçüncü ilini qeyd edirik. İldən-ilə 44 günlük müharibədə əldə etdiklərimizin böyüklüyünü daha çox anlayırıq.

Bəli, üç il öncə Xankəndinin qapısında dayanıb Ermənistanla Rusiyanın iştirakı ilə üçtərəfli bəyanatın imzalanmasına razı olanda hamımızda bir nigarançılıq yaranmışdı. "Qarabağa rus sülhməramlıları gəlir, qondarma rejim mövcudluğunu qoruyur, arayiklər, qukasyanlar, saakyanlar yenə üstümüzə hürməkdə davam edəcəklər", - deyə, düşünmüşdük.

### ƏLDƏ EDİLƏN ZƏFƏRİN NÖVBƏTİ TƏNTƏNƏSİ

Amma zaman keçdikcə hər şeyə nəzarəti ələ almağa başlayanda, 44 günlük müharibənin sonunda əldə etdiyimiz Zəfərin dəyərinin nə qədər böyük olduğunu bir daha anlamağa başladıq. Sərhəddə ermənilərin növbəti cığallıqlarının qətiyyətli cavabını verəndə, Laçından alternativ yolla bağlı istədiyimizi diktə edəndə, Həkəri çayının üzərində nəzarət-buraxılış məntəqəsi fəaliyyətə başlayanda bir daha anladıq əldə etdiyimiz Zəfərin böyüklüyünü. Bu ilin sentyabrındakı lokal xarakterli antiterror tədbirləri və nəhayətində Xankəndində bayrağımızın ucaldılması da Vətən müharibəsinin sonunda əldə edilən Zəfərin növbəti təntənəsi idi.

### DÜŞMƏNİ DƏ "AĞILLANDIRAN" ZƏFƏR

İndi gözəl günlər yaşayırıq. 30 il düşmən işğalında qalan bütün ərazilərimizdə suverenliyimizi bərpa etmişik. Müharibə günlərində bizə hədyanlar yağdıran, Gəncənin raket atəşinə tutulmasına qərar verən Arayiki də artıq həbs edib Bakıya gətirmişik.

Qondarma qurumun buraxılması haqqında sənədə imza atan Şahramanyan İrəvana qaça bilsə də, orada da gizlənməyə deşik axtarır.

Paşinyan da qondarma qurumun İrəvandakı "nümayəndəliyini" bağlamaq qərarı verib. Təbii ki, onları "ağıllandıran" da 44 günlük müharibə sonunda əldə etdiyimiz Zəfərdir.

### BİZLƏRİ SEVİNC GÖZ YAŞLARINA QƏRQ EDƏN ZƏFƏR

Zəfərin emosional tərəfi isə bizim nəslin yaddaşında ölənə kimi qalacaq. Şuşanın azad edilməsi ilə bağlı xəbərin verildiyi günü yaddan çıxarmaq olarmı? Xəbəri dostlarla birgə Bayraq günü ilə bağlı iştirak etdiyimiz bir tədbirdə aldıq. Sevindik, atılıb-düşdük, bir-birimizə sarıldıq. Tədbir keçirilən məkandan çıxıb maşına oturdum və evə doğru yol aldım. Az sonra radionu işə saldım. "Şuşanın dağları" mahnısı səslənirdi. Həmin anda əlim əsdi, kövrəldim və maşını yol kənarına çəkməli oldum. Nə gizlədim, elə maşındaca hönkür-hönkür ağladım.

Əminəm ki, damarında azərbaycanlı qanı axanların əksəriyyəti həmin gün bu hissi bu və ya digər formada yaşamışdı. Bu gözəl, unudulmaz hissi bizə yaşadan da Zəfərimiz idi. İldən-ilə dəyəri bir az da artan Zəfərimiz!

Qələbə xəbərlərinin paylaşıldığı tvitlərlə başlayıb Xankəndidə bayrağımızın ucaldılması ilə məntiqi sonluğuna çatan bu Zəfər daim anılacaq. Biz hər 8 Noyabr günü gələndə qələbəmizin necə böyük dəyərə malik olduğunu bir daha dərk edəcəyik!

Zəfərimiz mübarək!

# BİZİ DƏYİŞDİRƏN ZƏFƏR



Tarix boyu dəyişməyən tək bir reallıq var - "Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!". Bu həqiqət dövlətimiz var olduqca dəyişməyəcək.



**AZAD ƏLİYEV**
azad.eliyev@kaspi.az

Ən böyük nemətimiz sayılan müstəqilliyimizin yaşı cəmi 32 ildir. Tarix üçün çox qısa müddət sayılsa da, bu zaman kəsiyində dövlət, xalq olaraq yaşadıqlarımız bəlkə də əsrlərə bərabərdir. İşğal, soyqırımlar, milyondan artıq məcburi köçkün və qaçqın ordusu, viran qoyulmuş, xarabaya çevrilmiş şəhərlər, kəndlər, məğlubiyyət, ən sonda isə yaddaşlarımıza əbədi həkk olunan tarixi Zəfər. Sadaladıqlarımızın hər biri fərd olaraq, millət olaraq düşüncəmizdə, həyat tərzimizdə, dünyaya baxışımızda dəyişikliyə yol açdı.

### ARTIQ İŞĞAL GÜNLƏRİNİ YOX, ZƏFƏR TARİXİNİ ÖYRƏNİRİK

Bir milləti var edən, yaşadan onun əyilməz qüruru, sınmaz iradəsi, əzmidir. 30 illik işğal bizim iradəmizi sındıra bilməsə də, qürurumuzu incitdi. Bəzilərimizdə istər-istəməz məğlub xalq, məğlub dövlət stereotipi yaranmağa başladı. Lakin sahib olduğumuz dəyərlər, əzmkarlıq, dövləti doğru yola yönəldən, cəmiyyətdə Vətən sevgisini ölməyə qoymayan liderlik bizləri möhtəşəm Zəfərə apardı.

Artıq məktəblərdə uşaqlarımıza işğal günləri yox, Zəfər tarixi tədris edilir. Bu gün ayrılıq, həsrət şeirləri, mahnıları yox, qəhrəmanlıq dastanları yazılır. Ruhumuz qələbə notları ilə bəslənir. Gəncliyimiz işğalın fəsadlarından azad ruhda böyüyür, inkişaf edir. Biz fərd olaraq, cəmiyyət olaraq dəyişirik. Yenə də minlərlə şəhidimizin qanı, canı hesabına qazandığımız, biz bütövləşdirən, tam edən Zəfərimizin hesabına...

### KİM NƏ ƏKİRSƏ, ONU DA BİÇİR

Dəyişən tək insanlarımız yox, həm də cəmiyyətimiz, dövlətimizin dünyaya baxışıdır. Tarixi Zəfərlə tək ərazi bütövlüyümüzü, suverenliyimizi, millət olaraq qürurumuzu bərpa etmədik. Həm də kimlərin bizim üçün dost, kimlərin isə sözdə dost olduğunu görmək imkanı qazandıq. Azərbaycan artıq özünün dostlarını, müttəfiqlərini çətin gündə ona göstərilən münasibət əsasında seçir. Beynəlxalq səviyyədə əlaqələrini bu prinsip əsasında qurur. Ən başlıcası isə, seçimlərimizə, yanaşmalarımıza kimsə irad bildirə, bizləri dövlət olaraq qınaya bilmir. Çünki ortada üç illik reallıq, təcrübə var. Atalarımız demiş, kim nə əkirsə, onu da biçir.











## HAQQ İŞİMİZƏ KÖLGƏ SALANLAR

Çətin günün dostu olanlar bu gün dünyanın ən mühüm geosiyasi məkanlarından sayılan bölgəmizdə Azərbaycanın tarixi Zəfərdən sonra yaratdığı yeni imkanlardan, reallıqlardan geniş şəkildə istifadə etmək, yararlanmaq fürsətinə malikdir. Hansı ki, biz artıq bunun ilkin nəticələrini də görürük. Haqq işimizi kölgələyənlərə isə sadəcə kənardan baxmaq qalır, məkrli planları isə artıq işə yaramır. Çünki biz dəyişmişik, dünyaya, dost-düşmən anlayışına baxışımız dəyişib.

### QURURUQ, YARADIRIQ, YAŞADIRIQ...

Millətimizin özgüvəni qayıdıb, gücünə, potensialına olan sarsılmış inamı bərpa olunub. Artıq gələcəyə qaranlıq keçmişdən yox, nurlu sabahdan baxırıq. Qururuq, yaradırıq, yaşadırıq...

Zəfər həm də tarixi torpaqlarımızın simasını dəyişir. 30 illik işğal dövründə xarabaya çevrilmiş yurd yerlərimizə qayıdırıq, orada cənnət yaradırıq. Bütün çətinliklərə, bizlərin dəyişməməsi üçün əllərindən gələni edənlərin bütün məkrli planlarına, təxribatlarına baxmayaraq, qarşımıza qoyduğumuz hədəfə doğru inamla irəliləyirik.

Dünyaya bir millətin, dövlətin çox qısa müddətdə necə dəyişdiyini, hansı potensiala malik olduğunu, qurub-yaratmaq əzmini qürurla nümayiş etdiririk.

## TARİXİ QƏLƏBƏMİZDƏN SONRA DÜNYANIN DA BİZƏ BAXIŞI DƏYİŞİB

Bunun nəticəsidir ki, dünyanın da bizə baxışı dəyişib. Qalib dövlət, qalib lider, qalib millət olaraq sözümüzlə hesablaşır, yaşadığımız coğrafiyada məhz bizim əsl söz sahibi olduğumuzu qəbul edirlər. İndi hər birimizin səfər etdiyi hər hansı xarici ölkədə işğala məruz qalan dövlətin vətəndaşı kimi yox, öz gücü və imkanları, ordusunun qəhrəmanlığı və liderinin əzmi, iradəsi ilə qalib gələn millətin təmsilçisi kimi qarşılanırıq.

Artıq haqq-ədalətin bərpası, həqiqətlərin qəbul edilməsi, işğalın aradan qaldırılmasına görə kimlərdənsə yardım ummuruq. İndi bizdən məsləhət alırlar, indi Azərbaycan bir çoxlarına yol göstərir.

### DƏYİŞMƏYƏN TƏK HƏQİQƏT

Bəli biz dəyişdik. Millət olaraq, xalq olaraq, dövlət olaraq dəyişdik. Tarix boyu dəyişməyən tək bir reallıq var - "Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" Bu həqiqət dövlətimiz, millətimiz var olduqca dəyişməyəcək. Bu reallığı dəyişməyə cəhd edənlər isə, hər zaman qarşısında güclü Azərbaycan, qalib millət, qüdrətli Ordu görəcəklər. Artıq bu dəyişikliyi hər kəsin qəbul etməsinin zamanı çatıb. Bizə bu dəyişiklikləri yaşadan Zəfərin mübarək, Azərbaycan!

# REGİONAL YÜKSƏLİŞ ERASINI BAŞLADAN ZƏFƏR



**Xalqımızın qeyd etdiyi Zəfər tək Azərbaycanın ərazi bütövlüyünün bərpası deyil, bütövlükdə bölgənin üzərində asılan "Domokl qılıncı"nın neytrallaşdırılması simvoludur. Qarabağ zəfəri həm də Türk dünyasının bütünləşməsi istiqamətində əhəmiyyətli təkandır.**

RÜSTƏM QARAXANLI

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Astanada Türk Dövlətləri Təşkilatının 10-cu Zirvə görüşündə belə bir fikir işlədib: "Dünyada uzun illərdir sistemli böhran yaşanır. Bu böhran qarşısında biz türk dövlətləri özündə siyasi, hərbi və iqtisadi sferaları birləşdirən qüvvələr ittifaqı yaratmaq istəyirdik. Türk dövlətləri arasındakı bu həmrəylik və birlik ruhu bütün sahələrdə inkişaf etməyə başlayıb. Türk dövlətləri arasında artıq siyasi birlik var. Qarabağ bu birliyin bütün dünyaya sübutu oldu".

Həqiqətən də Azərbaycanın Qarabağ zəfəri Türk dünyasının bütünləşməsi istiqamətində əhəmiyyətli təkandır. Bu qələbədən sonra sovetlərin çöküşü ilə aktuallaşan həmrəylik nəzəri çərçivələri aşıb praktiki sima almağa başlayıb. Türkiyə liderinin bu sözləri Azərbaycanın 2020-ci ilin Vətən müharibəsindəki qələbəsinin sadəcə iki dövlət arasındakı savaşın nəticəsi hüdudlarından dəfələrlə miqyaslı və tarixi əhəmiyyətli hadisə olduğunun təcəssümüdür. Xalqımızın qeyd etdiyi Zəfər tək Azərbaycanın ərazi bütövlüyünün bərpası deyil, bütövlükdə bölgənin üzərində asılan "Domokl qılıncı"nın neytrallaşdırılması simvoludur.

### YENİ TƏHLÜKƏSİZLİK DÜZƏNİ

Son 30 ildə Cənubi Qafqazdakı status-kvonu xarici təsirlərin vəhdəti və mübarizəsi kimi qiymətləndirmək olardı. Bölgədə həm regional, həm də uzaqdan idarə olunan güclərin toqquşan maraqları və bu maraqlardan doğan tarazlaşdırılmış sabitlik hökm sürürdü. Belə bir vəziyyət region təmsilçilərindən başqa sanki hamıya sərf edirdi. Rusiya Ermənistan vasitəsilə Cənubi Qafqazın hökmran geosiyasi oyunçusu idi, İran regiona yad və düşmən ünsürlərin daxil olmasını istəmədiyindən status-kvo ilə qənaətlənirdi, Qərb isə yaranmış sabitlikdən özünün enerji maraqları naminə komfortlu istifadə şəraitindən məmnun idi.

Güc mərkəzlərindən fərqli olaraq, Azərbaycan və Gürcüstanın əraziləri işğalın, Ermənistanda isə məhdud hakim klan istisna olmaqla, sıravi xalq tənəzzülün əsirliyində idilər. Azərbaycanın qələbəsi dolayı yolla orta statistik ermənin maraqlarına cavab verir. Real rejimdə sülhün təmin olunması və müharibənin mənəvi-psixoloji yükündən azad olma, perspektivdə isə yeni geosiyasi mənzərənin yol açacağı iqtisadi kooperasiyanın dividendlərindən yararlanma mümkünlüyü. Təbii ki, Ermənistan hökumətinin praqmatikliyi və ağıllı davranışı şərti ilə.

Yeni təhlükəsizlik arxitekturası bölgə təmsilçilərinə xarici təsirlərin manipulyasiyasından qurtulmaq üçün sanballı şansdır. Ermənistanın məğlub olmasına baxmayaraq, seçicilərin Nikol Paşinyan hökumətinə elektoral dəstəyi bu şansın sadə xalq tərəfindən dərk edildiyinin göstəricisidir. Ermənistanda anti-Rusiya təzahürlərinin getdikcə radikallaşması ermənilərin geosiyasi istiqamətlərini dəyişmələrindən daha çox, son 30 ilə qarşı etdikləri qiyamdır. Azərbaycan torpaq itirmişdisə, Ermənistan gələcəkdən məhrum olub. Biz torpaqları 44 gün, 23 saat 50 dəqiqəyə qaytardıq, ancaq ermənilər əldən verdikləri gələcəyə belə tezliklə qovuşa bilməyəcəklər.

## REGİONAL RİFAH

Cənubi Qafqaz kimi kiçik bölgədə bir dövlətin xaricdən qidalanan aqressivliklə digərlərini təhdid etməsi şəraitində ayrıca götürülmüş bir ölkənin iqtisadi yüksəlişi sabitlik və təhlükəsizlik baxımından təminat tələb edir. Ərazilərinin itkisinə baxmayaraq, sürətli iqtisadi inkişafa nail olmuş Azərbaycan üçün erməni separatizmi və militarist ritorikalı yeni bəyanatlar uzunmüddətli rifahın təminatı yolunda ciddi maneələrə səbəb olurdu. Eyni təhlükəni qonşu Gürcüstan da hiss edirdi, erməni radikallarının Cavaxetiya bölgəsinə iddiaları getdikcə daha da aşkar görüntü alırdı. Azərbaycanla Gürcüstanın müştərək şəkildə həyata keçirdikləri transmilli iqtisadi layihələr onların Ermənistandan sürətlə aralanmasına səbəb olsa da, "Ac qonşu hər an təhlükə mənbəyidir" prinsipini heç kim təxirə salmamışdı. Azərbaycanın zəfəri Qafqazda elə bir iqtisadi kooperasiya imkanı yaradıb ki, savadlı yararlanma təqdirində həm də tənəzzüldə olan Ermənistan üçün yeni üfüqlər açılır. Zəfərimiz həm də daha geniş anlamda bölgə üçün xarici təhdidlərdən qurtulmanı təmin edə bilər. İqtisadiyyat siyasi və tarixi ədavəti unutdura biləcək ən güclü faktordur. Bu gün Azərbaycan "orta güc" olaraq bütün bölgə üçün siyasi və iqtisadi lokomotiv qismində çıxış edir. Təbii ehtiyatları, logistik imkanları, sənaye potensialı ilə bir, aşkar demoqrafik üstünlüyü, intellektual potensialı və daxili həmrəyliyi ilə digər tərəfdən. Biz bunu Gürcüstanla 20 ildən çox tarixi olan əməkdaşlıqla sübuta yetirmişik. Ermənistanın dirçəlişinin yeganə yolu Azərbaycanla sülh şəraitində yaşamaqdır. Əks halda, nə hakimiyyətlərin dəyişməsi, nə islahatlar erməni xalqını tarix boyu izləyən mənəvi-siyasi bataqlıqdan qurtara bilməz. Müdriklər səhv etmirlər, ağıllılar digərlərinin səhvlərindən nəticə çıxarmağı bacarırlar, axmaqlar isə öz səhvlərini daim təkrarlayırlar. Ermənistan Azərbaycanın tarixi Zəfərindən dərs çıxarmağı bacarmalıdır.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az






# REGİONDA SEPARATİZMƏ SON QOYAN İLK ÖLKƏ

Tarixi qələbəmiz postsovet məkanında ciddi rezonans doğurmaqla yanaşı, separatizmdən əziyyət çəkən ölkələri də bu bəladan qurtulmağa ümidləndirib. Artıq Moldova, Ukrayna və Gürcüstan kimi ölkələr ərazi bütövlüklərinin bərpası istiqamətində aktiv fəaliyyətə keçiblər.



AZƏR NURİYEV

Üç il əvvəl Azərbaycan cəmi 44 gün sürən müharibə ilə tək torpaqlarını işğaldan azad edib suverenliyini, ərazi bütövlüyünü bərpa etməyib, həm də tarixi qələbəsi ilə postsovet məkanın tarixini də dəyişmiş olub. Qələbə ilə 30 illik erməni işğalına son qoyulub və Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında dünya hərb tarixində görünməmiş sürətlə işğalçı dövlətin nəzarət etdiyi torpaqları azad edib. Ən mühümü odur ki, otuz ilə yaxın müddətdə BMT-nin kağız üzərində qalmış dörd qətnaməsinin icrasını təmin etməklə nadir presedent formalaşdırıb. 2023-cü ilin sentyabrın 19-20-də həyata keçirilən antiterror tədbirlərlə 200 illik erməni separatizminə son qoyulmaqla ilkə imza atılıb.

## GÜRCÜSTAN AZƏRBAYCANDAN ÇOX ŞEY ÖYRƏNƏ BİLƏR

Bu tarixi nailiyyət postsovet məkanında ciddi rezonans doğurmaqla yanaşı, separatizmdən əziyyət çəkən ölkələri də bu bəladan qurtulmağa ümidləndirib. Artıq Moldova, Ukrayna və Gürcüstan kimi ölkələr ərazi bütövlüklərinin bərpası istiqamətində aktiv fəaliyyətə keçiblər.

Yaxın Şərq və Qafqazın Tədqiqi İnstitutunun direktoru Vasili Papava deyir ki, Azərbaycanın qələbəsi regiondakı digər separatçıları da böyük qorxuya salıb: "Separatçı qüvvələr gördülər ki, gec-tez ədalət öz yerini tapacaq və öz məqsədlərinə çata bilməyəcəklər. Gürcüstan da Azərbaycandan nümunə götürməli, işğal faktının ölkə daxilində və beynəlxalq aləmdə unudulmasına imkan verməməlidir".

Politoloq Badri Naçkebia isə vurğulayır ki, cəbhə xəttindəki uğurlar tək Azərbaycan ordusunun deyil, həm də Azərbaycan diplomatiyasının qələbəsidir. Çünki hazırda güc əsas amil deyil: "Azərbaycan çoxvektorlu xarici siyasət yeritməklə, inkişaf etməklə, beynəlxalq aləmdə mövqelərini möhkəmləndirdi. Azərbaycandan fərqli olaraq, Gürcüstan daha ciddi etnik problemlərlə üzləşib və bu, o vaxtkı Gürcüstan hakimiyyətinin zəif xarici siyasəti və diplomatiyası ilə bağlı olub.

İnanıram ki, Gürcüstan Azərbaycandan, xüsusən də xarici siyasət məsələlərində çox şey öyrənə bilər".





Badri Naçkebia

## MOLDOVANIN DA ŞANSI AZDIR

Moldovaya gəldikdə, bu ölkə artıq xeyli müddətdir ərazisində qanunsuz yaradılmış Dnestryanı bölgəni ləğv etmək istiqamətində aktiv fəaliyyət göstərsə də, səyləri nəticəsiz qalır. Ukraynada gedən müharibə fonunda bu ölkədə anti-Rusiya xarakterli çıxışlar artıb. Qeyd edək ki, Ukraynada hərbi əməliyyatlar başlayandan Kişineu neytral mövqe tutub. Ölkə anti-Rusiya sanksiyalarına qoşulmayıb və eyni zamanda, ikili təyinatlı məhsul kimi şərh edilə bilən malların öz ərazisindən keçməsinə icazə vermir və Tiraspolla birbaşa təmaslarını davam etdirir. Maraqlıdır ki, Kişineunun belə mövqeyi ABŞ də daxil olmaqla, Qərb dövlətləri tərəfindən dəstəklənib. Xatırladaq ki, Moldova ilə tanınmamış "Dnestryanı Moldova Respublikası" (Kişineu qəti şəkildə bu adı tanımır) arasında münaqişə 1992-ci ildən dondurulub və hələ də həllini tapmayıb. Münaqişənin silahlı mərhələsi 1992-ci il avqustun 1-də başa çatıb. Hazırda münaqişə zonasında təhlükəsizliyi Rusiya, Moldova Respublikası, Dnestryanı bölgənin hərbi kontingentləri və Ukraynadan (müharibə başlayandan sonra geri çağırılmış) hərbi müşahidəçilərin daxil olduğu birgə sülhməramlı qüvvələr təmin edir. Çoxsaylı danışıqlar zamanı Dnestryanı ərazinin statusu ilə bağlı razılığa gəlmək mümkün olmayıb. Münaqişə tərəfləri arasında münasibətlər gərgin olaraq qalır. Moldova tərəfi dəfələrlə Rusiya qoşunlarının bölgədən çıxarılmasını tələb edib.

## UKRAYNADAKI MÜHARİBƏ HƏLƏ DAVAM EDƏCƏK

Bu illər ərzində separatizmdən əziyyət çəkən ölkələr sırasına daha bir dövlət də daxil olub - Ukrayna. 2014-cü ildə ərazisində Donetsk, Luqansk kimi qondarma qurumlar yaradılıb. Hazırda da bu ərazilərdə qanlı döyüşlər gedir. Hadisələrin axarı onu deməyə əsas verir ki, bu regionda müharibə hələ uzun müddət davam edəcək.

Ukrayna Ali Radasının deputatı Yuri Kamelçukun sözlərinə görə, rəsmi Kiyev ərazi bütövlüyünün bərpası məsələsində Bakının üsullarından istifadə edə bilər. O qeyd edib ki, Rusiya sülhməramlılarının Qarabağa yeridilməsindən sonra regionda təxribatlar davam edib, informasiya mübarizəsi güclənib, buna görə də Bakı qətiyyətli addımlara əl atmalı olub. Ukraynalı deputat hesab edir ki, bu cür nümunələr əraziləri işğal altında olan digər ölkələr üçün də ilham mənbəyidir. "Eyni model Donbasın azad edilməsi üçün də istifadə oluna bilər - baxmayaraq ki, hərbi baxımdan burada vəziyyət daha mürəkkəbdir. Ona görə də mən əminəm ki, Ukrayna Krımın, Donbasın azad edilməsi məsələsində düzgün yoldadır".

Görünən odur ki, postsovet məkanında Azərbaycan hələ uzun müddət separatizmə son qoyan yeganə ölkə kimi qalacaq.



Yuri Kamelçuk

XOCAVƏND DÖYÜŞLƏRİNDƏ ŞƏHİD OLAN SAHİB DAŞDƏMİROV XATİRƏLƏRDƏ







# Vətənə sevgi ilə xidmət EDƏN ŞƏHİD

"Hər dəfə cəbhədə gərginlik olanda, maraqlanırdıq, həmişə də "mən olan yer sakitlikdir, narahat olmayın", deyirdi. Şəhid olduğu döyüşdən öncə də dedi ki, biz tərəf sakitlikdir. Bir neçə saat sonra şəhid olub".



AYGÜN ASİMQIZI

Kiçik yaşlarından vətənpərvərliyi ilə seçilib, "Hərbçi olacam" deyib. Yaşı az olduğu üçün yaxınları bunun sadəcə bir uşaqlıq arzusu olduğunu düşünüblər. O isə zamanı gəldiyində - 8-ci sinifdə oxuyanda, hərbi liseydə təhsil almaq istədiyini bildirir. Çox həvəsli olduğu və israr etdiyi üçün ailəsi razılaşır, o, hərbi liseydə təhsilə başlayır və bu istiqamətdə davam edir. Ailəsi, döyüş yoldaşları deyirlər ki, vətənpərvərlik onun canında, qanında, ruhunda idi.

Söhbət bu il Qarabağda gedən lokal antiterror əməliyyatları zamanı Xocavənd istiqamətindəki döyüşlərdə şəhid olan baş leytenant Sahib Daşdəmirovdan gedir.

Qeyd edək ki, Sahib Natiq oğlu Daşdəmirov 6 may 1995-ci ildə Bakı şəhərində anadan olub. 2001-ci ildə Bakı şəhəri Alı Mustafayev adına 202 saylı tam orta məktəbdə təhsil almağa başlayıb, 2009-cu ildən təhsilini Cəmşid Naxçıvanski adına Hərbi liseydə davam etdirib. Daha sonra 2012-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2016-ci ildə ali təhsilini başa vurduqdan sonra Şəmkirdə "N" saylı hərbi hissədə snayper taqım komandiri vəzifəsində çalışmağa başlayıb. 2017-ci ilin avqustunda isə könüllü olaraq Qazax rayonundakı "N" saylı hərbi hissəyə keçib. 2018-ci ilin mayından 2020-ci ilin may ayınadək Murovda taqım komandiri olub. Daha sonra Gədəbəy rayonunda "N" saylı hərbi hissədə bölük komandiri vəzifəsində çalışıb. Bu ilin fevral ayından isə Xocavənd rayonunda "N" saylı hərbi hissədə taqım komandiri vəzifəsində çalışıb. Bu il sentyabrın 20-si şəhidlik zirvəsinə yüksəlib. Sahib Daşdəmirov II Fəxri Xiyabanda dəfn olunub.



## "HƏRBİYƏ HƏVƏSİ ÖLMƏDİ, ƏKSİNƏ, ARTDI"

"Kaspi" şəhidin doğmaları ilə həmsöhbət olub. Anası Sahibə Həsənova Sahibin hər zaman ön cəbhədə xidmətə can atmasından söz açıb: "Hərbiyə maraqlı uşaq idi. Uşaq vaxtından deyirdi ki, hərbçi olacam. Uşaq idi, düşünmürdük ki, hərbini seçəcək. Dedik, yəqin uşaqlıq həvəsidir. 8-ci sinifdə dedi ki, hərbiyə gedəcəyəm. 8-ci sinfi bitirən kimi hərbi liseyə qəbul oldu. Liseyi fərqlənmə ilə bitirdi, sonra ali hərbi təhsil aldı. Gördük, yox, onun bu sahəyə həvəsi ölmədi, əksinə, artdı. Onu bilirəm ki, hərbini seçməyinə bir gün belə peşman olmadı. Həvəslə, istəklə xidmət edirdi, hər zaman ön cəbhədəki yerlərə can atırdı".

Atası Natiq Daşdəmirovun sözlərinə görə, Sahib ən gərgin döyüşlərdə olanda belə, evdəkilərin narahat olmasını istəməyib: "Hərbçi idi, ön cəbhədə idi, istər-istəməz narahat olurduq. Hər dəfə cəbhədə gərginlik olanda, maraqlanırdıq, həmişə də "mən olan yer sakitlikdir, narahat olmayın", - deyirdi. Şəhid olduğu döyüşdən öncə də dedi ki, biz tərəf sakitlikdir. Bir neçə saat sonra şəhid olub. Döyüşün içində idi, amma bizim narahat olmağımızı istəməyib. Belə bir oğul idi. Hər məsələyə belə yanaşırdı".

### "SAHİB MƏNİM QÜRUR YERİMDİR"

Həyat yoldaşı Aytən Daşdəmirova deyir ki, hər zaman həyat yoldaşının hərbçi olması ilə fəxr edib: "Sahib mənə Allah tərəfindən verilən xəzinə idi. Mən çox şanslı xanımam ki, Sahib kimi həyat yoldaşım olub. Sahibin necə həyat yoldaşı olmasını sözlərlə, cümlələrlə ifadə edə bilmərəm. Hərbçi həyat yoldaşı olmaq həm çox qürurverici, həm də çox çətin idi. Deyirlər ki, hərbçi yoldaşı olmaq üçün gərək hərbçidən güclü və dözümlü olasan. Mən də elə olmağa çalışmışam. Həyat yoldaşımla hər zaman qürur duymuşam. Sahib bizim aramızdan ən uca zirvəyə yüksələrək - şəhid olaraq ayrıldı. Necə ki, şəhid olmaq hər kəsə qismət olmur, eləcə də şəhid yoldaşı olmaq hər xanıma qismət olmur. Sahib mənim qürur yerimdir, mən onun adını daim uca tutacağam, yaşadacağam".

## "İŞİNƏ ÇOX PEŞƏKAR YANAŞIRDI"

Döyüş yoldaşı Eyvaz Eldarov Sahibi həm yaxşı insan, həm də yaxşı hərbçi kimi tanıdığını bildirdi: "Savadlı zabit idi, işinə çox peşəkar yanaşırdı. Hər addımında, danışığında bunu hiss edərdin. Bölükdə nə isə etmək üçün əlindən gələni edirdi. Eyni zamanda çox gözəl insan idi. Əsgərlərlə də münasibəti yaxşı qurmuşdu. Əsgərlərlə bağlı məsələlərdə çox diqqətli davranırdı. Əsgərin səhvi olanda elə izah edirdi, elə formada başa salırdı ki, bir də səhv etməyə utanırdı".

### "DEYİRDİ Kİ, MƏN TORPAĞIMI ÇOX SEVİRƏM"

E.Eldarov deyir ki, Sahibin hərbidə yüksək pillələrə gəlmək arzusu böyük idi: "Xidmətdə fərqlənməyə, nümunəvi olmağa çalışırdı. Əsl hərbçi idi. Hərbçiliyi geyimində yox, canında, qanında idi. Qısa müddət söhbət edən hər kəs ondakı o vətənpərvərliyi hiss edəcəkdi. Dağda, daşda, qarlı yerlərdə xidmət etmişdi, hamısındakı çətinlikləri danışırdı, amma ardınca deyirdi ki, "Mən torpağımı çox sevirəm". Vətənə, torpağa bağlı bir ruha sahib idi. Daha yuxarı pillələrə qalxmağı arzulayırdı. "Mən hərbidə özümü doğruldacağam, nə olur-olsun hərbidə qalacam", - deyirdi".

Hərbi ilə bağlı arzuları böyük olsa da, cəbhədə gərginlik olduğunda, yaxınları onun üçün narahat olanda deyirmiş: "Hər şey yaxşıdır, narahat olmayın, uzağı Vətən yolunda şəhid olacağıq". Bəli, o uşaqlıqdan sevdiyi Vətənin torpaqları uğrunda şəhid oldu.

Qeyd edək ki, Sahib Daşdəmirov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" və "Vətən uğrunda" medalları ilə təltif olunub.

## ARTIQ AY-ULDUZLU, ÜÇRƏNGLİ BAYRAĞIMIZ AZƏRBAYCANIN BÜTÜN ƏRAZİSİNDƏ DALĞALANIR!

# TARİXİ ZƏFƏRİN ÜÇÜNCÜ İLİNDƏ

HAZIRLADI

RUFİK İSMAYILOV

**Müzəffər Ali Baş Komandan İlham Əliyev:** “Azərbaycan xalqı elə bir Qələbə qazanıb ki, həm dillər əzbəri olub, həm də bu Qələbə əbədi bizimlə olacaq. Bu Qələbə bizim tariximizdə əbədi olacaq. Bizdən sonra gələn nəsillər bu Qələbə ilə əbədi və haqlı olaraq fəxr edəcəklər”.

“Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!” Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 8 noyabr 2020-ci il tarixdə xalqımıza verdiyi bu müjdəli xəbər sadəcə 10 milyonluq ölkəmizin deyil, dünyada yaşayan 50 milyon azərbaycanlının sevincinə səbəb oldu. Ata vəsiyyətini yerinə yetirən dövlət başçısının rəhbərliyi altında Silahlı Qüvvələrimiz əyilməzlik simvolumuz Şuşanı işğalçılardan azad etdi. Bu hərbi uğur 44 günlük Vətən müharibəsinin də taleyini həll etdi. Təsadüfi deyil ki, Şuşanın işğalçılardan təmizlənməsindən cəmi iki gün sonra - noyabrın 10-da Ermənistan siyasi rəhbərliyi kapitulyasiya aktına qol çəkmək məcburiyyətində qaldı. Prezident İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli sərəncamı ilə xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il noyabrın 8-nin Azərbaycanda Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilməsi qərara alındı.

### TARİXİ ŞƏHƏRİMİZƏ HƏYAT YENİDƏN QAYIDACAQ

Əslində Prezident İlham Əliyev bu tarixi hadisənin anonsunu hələ 2016-cı ilin Aprel döyüşlərindən bir müddət sonra vermişdi. İşğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində Şuşadakı Gövhər ağa məscidinin memarlığına, ölçüsünə, üslubuna görə eynisi inşa olunmuşdu. İbadət evinin açılışının ardınca sakinlər qarşısında çıxış edən dövlət başçısı onları əmin etmişdi ki, gün gələcək Şuşa şəhəri də azad olunacaq, orada erməni vandalları tərəfindən dağıdılmış məscidlərimiz bərpa ediləcək, tarixi şəhərimizə həyat yenidən qayıdacaq.

### “SÖZÜMÜZ İMZAMIZDIR”

Hər zaman “Sözümüz imzamızdır” söyləyən Prezident İlham Əliyev 2020-ci ilin 8 noyabrında bir daha sözünün sahibi olduğunu nümayiş etdirdi. O, Şuşanın azadlığa qovuşması xəbərini Şəhidlər Xiyabanından televiziya vasitəsilə xalqına çatdırmaqla, müqəddəs ruhlar qarşısında da hesabat vermiş oldu. Ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olan qəhrəmanların qisasının alındığını, qanlarının yerdə qalmadığını bütün dünyaya bəyan etdi. “Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, ulu öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!” - deyən Prezident İlham Əliyev 28 illik işğaldan sonra Şuşada yenidən azan səsi eşidiləcəyini, bu şəhərdəki tarixi abidələrimizin, məscidlərimizin bərpa olunacağını, ümumən böyük quruculuq tədbirlərinin həyata keçiriləcəyini bir daha vurğuladı.

### QARABAĞIN ƏZƏLİ SAKİNLƏRİ ÖZ YURDLARINA QAYIDIRLAR

Həmin vaxtdan indiyə qədər ötən zaman ərzində azad Qarabağ böyük tikinti-quruculuq meydanına çevrilib. İşğaldan azad olunan rayonların baş planları təsdiqlənib, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bölgəyə səfərləri çərçivəsində neçə-neçə şəhər, qəsəbə və kəndlərin təməli qoyulub. İndiyə qədər Füzuli, Zəngilan hava limanlarının, çoxsaylı elektrik stansiyaların, “Zəfər yolu”nun, Füzulidə, Zəngilanda, Laçında yaşayış kompleks-lərinin, məktəb, uşaq bağçası və inzibati binaların açılışları olub, yeni hərbi hissələr, komando bölükləri yaradılaraq müdafiə qüdrətimiz daha da artırılıb, Qarabağın əzəli sakinlərinin öz ata-baba yurdlarına qayıdışına start verilib. Vətəndaşların məşğulluğunun təmin olunması üçün bir sıra iqtisadi layihələr reallaşdırılıb.



### HƏR BİR AZƏRBAYCANLI ÜÇÜN MÜQƏDDƏS MƏKAN

Şuşaya gəlincə, bu tarixi şəhərimizdə də quruculuq geniş vüsət alıb. Heydər Əliyev Fondunun xətti ilə ilk növbədə məscidlərimiz, mədəni-tarixi abidələrimiz bərpa edilib, “Qarabağ”, “Xarı bülbül” hotellərinin, Şuşa Hotel-Konqres Mərkəzi Kompleksinin açılışı olub. Zəngin mədəniyyəti, tarixiliyi ilə seçilən Şuşa beynəlxalq tədbirlərə, festivallara, konfranslara, rəsmi qəbullara, qlobal forumlara ev sahibliyi edir. Bu tarixi Azərbaycan şəhərində Zəfər məscidinin, 17 binadan ibarət yaşayış kompleksinin təməli qoyulub. Artıq gələn ilin birinci rübündən 400-ə yaxın ailənin Şuşaya köçürülməsi planlaşdırılıb. Bu, işğaldan azad olunan bütün ərazilər kimi, Qarabağın tacı sayılan Şuşaya da Azərbaycan dövlət başçısının xüsusi diqqətinin göstəricisidir. Təsadüfi deyil ki, 2022-ci il noyabrın 8-də Zəfər Günü münasibətilə Şuşada təşkil olunan tədbirdə hərbçilər qarşısında çıxış edən Prezident İlham Əliyev Şuşanı Azərbaycan xalqının ürəyi, canı, hər bir azərbaycanlı üçün müqəddəs yer kimi dəyərləndirib.

### HƏYATDA ÖZ ƏKSİNİ TAPAN FƏLSƏFƏ

Onu da qeyd edək ki, İkinci Qarabağ müharibəsində qardaş Türkiyə Azərbaycana birmənalı mənəvi və siyasi dəstək verib. Bununla da Türkiyə Cümhuriyyətinin qurucusu, ulu öndər Mustafa Kamal Atatürkün “Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir”, müstəqil Azərbaycanın qurucusu və memarı, ümummilli lider Heydər Əliyevin “Bir millət, iki dövlət” fəlsəfəsi prezidentlər Rəcəb Tayyib Ərdoğan və İlham Əliyevin şəxsi münasibətləri, ölkələrimiz arasındakı qardaşlıq bağları kontekstində real həyatda növbəti dəfə öz əksini tapıb. Türkiyə Prezidenti, eləcə də digər rəsmi şəxslər tarixi haqq-ədalətin bərpasında daim Azərbaycanın yanında olduqlarını bəyan ediblər. Müharibədən sonra isə Qarabağda həyata keçirilən genişmiqyaslı quruculuq işlərinə Türkiyə şirkətləri cəlb olunublar. 2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında Rəcəb Tayyib Ərdoğanın iştirakı, 2021-ci il iyunun 15-də Şuşada prezidentlərin “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi”ni imzalamaları, həmin il oktyabrın 26-da Füzuli Beynəlxalq Hava Limanının, 22 oktyabr 2022-ci il tarixdə Zəngilan Beynəlxalq Hava Limanının, eləcə də türkiyəli iş adamlarının Qarabağda gerçəkləşdirdiyi iqtisadi layihələrin Türkiyə Prezidentinin iştirakı ilə açılışlarının olması da qardaşlıq əlaqələrinə gözəl nümunədir.

### SƏMİMİ DİALOQ, G ƏLƏCƏYƏ VERİLƏN MESAJ

Bu yerdə bir məqamı xüsusi vurğulamaq yerinə düşər. Qarabağa belə səfərlərin birində Prezident İlham Əliyevlə birlikdə Şuşa şəhərinin kənardan görünüşünü seyr edən Türkiyə dövlət başçısı Rəcəb Tayyib Ərdoğan uzaqda dağların əhatəsində müşahidə olunan yaşayış məntəqəsinin Xankəndi olduğunu öyrənincə, “Hotel orada olacaqmı?” - soruşur. Prezident İlham Əliyev isə cavabında gülərək “Orada da olacaq”, - deyə bildirir. 2021-ci ildə liderlər arasında yaşanan bu səmimi dialoqda Azərbaycan Prezidentinin qətiyyəti, prinsipiallığı, əminliyi ilə bərabər, xalqına verdiyi daha bir vədin, anonsun da şahidi olduq.

### 44 GÜNÜN QƏLƏBƏ XRONOLOGİYASI

Xatırladaq ki, Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində həmin il noyabrın 9-dək beş şəhər, dörd qəsəbə və 286 kənd işğaldan azad edilib. Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun üç kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun doqquz kəndi, Şuşa şəhəri, Laçın rayonunun üç kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda Bartaz, Sığırt, Şükürataz yüksəklikləri və daha beş adsız yüksəklik azad olunub. Noyabrın 10-da imzalanan Üçtərəfli bəyanata uyğun olaraq, noyabrın 20-də Ağdam rayonu Azərbaycana təhvil verilib. Bununla da rayonun işğal edilmiş 73 faiz ərazisi, o cümlədən Ağdam şəhəri azad olunub. Noyabrın 25-də Kəlbəcər rayonu Azərbaycana təhvil verilib. Bununla Kəlbəcər şəhəri də daxil olmaqla, 147 yaşayış məntəqəsi işğaldan azad edilib. 2020-ci il dekabrın 1-də isə bir şəhər, bir qəsəbə və 125 kənd olmaqla, ümumilikdə 127 yaşayış məntəqəsini özündə birləşdirən Laçın rayonu Azərbaycana təhvil verilib.



### AZƏRBAYCANIN SƏRGİLƏDİYİ SƏBİR VƏ TƏMKİN

Sadalanan yaşayış məntəqələrinin adlarından göründüyü kimi, o dövrdə işğaldan azad olunan ərazilər sırasında Xocalı, Xankəndi, Xocavənd, Ağdərə şəhərləri, Əsgəran qəsəbəsi yer almayıb. Qeyd olunan yaşayış məntəqələrinin erməniəsilli sakinlərinə rəsmi Bakı tərəfindən seçim imkanı yaradılıb. Ən yüksək səviyyədə bəyan edilib ki, qanunlarımıza tabe olaraq, vətəndaşlığımızı qəbul edərək ölkəmizdə qalıb yaşamaq istəyən ermənilərin təhlükəsizliyi tam təmin olunacaq. Yox, əgər hansısa erməniəsilli şəxs bu şərtləri qəbul etmirsə, özünün gələcəyini Ermənistanda yaşamaqda görürsə, sərbəst şəkildə arzuladığı ölkəyə gedə bilər.

Xankəndi və digər yaşayış məntəqələrindəki erməniəsilli sakinləri özlərinin girovuna çevirən separatçı rejim, təəssüflər olsun ki, o zaman Azərbaycanın bu humanist mövqeyini düzgün qiymətləndirmədi. Əksinə, separatçılar qondarma seçki keçirməklə, silahlı quldurlara güvənməklə, müxtəlif təxribatlara əl atmaqla Azərbaycan qanunlarına tabe olmayacaqlarını açıq-aşkar ortaya qoydular. Xunta rejiminin bu addımı Azərbaycanın səbrini daşıran sonuncu addım oldu. Silahlı Qüvvələrimizin 2023-cü ilin 23 sentyabrında bir sutkadan da az müddətdə həyata keçirdiyi lokal antiterror tədbirlərinin nəticəsi olaraq, erməni quldur birləşmələri tərk-silah edildilər. Ardınca isə separatçıların “liderləri”, özlərini “prezident” adlandıran təlxəklər hüquq-mühafizə orqanlarımız tərəfindən bir-bir tutularaq qanun qarşısında cavab vermək üçün Bakıya gətirildilər.

### “BU TARİXİ BİZ YAŞAMIŞIQ, BU TARİXİ BİZ YARATMIŞIQ”

Bütün bunların nəticəsi olaraq, Azərbaycan dövlət başçısı öz vədinə sadiq olduğunu növbəti dəfə ortaya qoydu. Oktyabrın 15-də Xocalı, Xankəndi, Xocavənd, Ağdərə şəhərlərində, Əsgəran qəsəbəsində üçrəngli, ay-ulduzlu bayrağımızı dalğalandıran dövlət başçısı İlham Əliyev prezidentliyinin 20 ili ərzində qarşısına qoyduğu bütün hədəflərə çatdığını dilə gətirdi: “Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və “Qurani-Kərim”ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi. ...Biz bu gün buradayıq, Xankəndidəyik, Xankəndinin mərkəzindəyik, Azərbaycan Gerbi, Azərbaycan Bayrağı altında. Bu, böyük xoşbəxtlikdir və tarixi hadisədir. İndi bu tarix haqqında danışmaq mənim üçün bəlkə o qədər də düzgün deyil. Çünki bu tarixi biz yaşamışıq, bu tarixi biz yaratmışıq. Azərbaycan xalqı elə bir Qələbə qazanıb ki, həm dillər əzbəri olub, həm də bu Qələbə əbədi bizimlə olacaq. Bu Qələbə bizim tariximizdə əbədi olacaq. Bizdən sonra gələn nəsillər bu Qələbə ilə əbədi və haqlı olaraq fəxr edəcəklər”.



# ZƏFƏR mədəniyyətimizdə layiqincə təbliğ olunurmu?

Zəfər tariximizi taclandıracaq mahnılara, şeirlərə, tamaşalara, filmlərə ehtiyac var. Bu sahədə müəyyən addımlar atılsa da, incəsənət xadimləri mövcud vəziyyətdən o qədər də razı deyillər.



KÖNÜL CƏFƏRLİ

Zəfər tariximizdən üç il keçir. Tarixi zəfərimizi istənilən sahədə dünyaya çatdırmaq önəmlidir. Geniş auditoriyası olan sahələrdən biri də mədəniyyətdir. Bəs Zəfər Günümüz mədəni müstəvidə layiqincə tərənnüm olunurmu? Zəfərimiz filmlərdə, ədəbiyyatda, musiqimizdə öz dəyərini, layiqli yerini ala bilirmi?

**“HANI BİZİM ŞAİRLƏRİN ZƏFƏR ŞEİRLƏRİ...”**

Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Rafiq Sadıqov deyir ki, Zəfər Gününə həsr olunan maraqlı tamaşalar olub: “Onlardan biri də Xalq artisti Azər Paşa Nemətovun hazırladığı möhtəşəm sənət əsəri idi. Onun ölümündən öncə hazırladığı Zəfər tarixinə həs edilən tamaşası uğurlu alınmışdı. Amma bütün bunlar yetərli deyil. İstər-istəməz sual yaranır: hanı bizim bəstəkarlar, şairlər, yazıçılar? Onlar bu üç il ərzində Azərbaycanın Zəfəri ilə bağlı şeirlər, poemalar yazmalıydılar. Bunlar təəssüf ki, yoxdur. 44 günlük müharibənin son qoyduğu torpaq həsrətini təcəssüm etdirən filmlər də yoxdur. Bir ailənin, bir ocağın fonunda 30 illik ayrılığın vüsala qovuşduğu tarixi hadisəni ictimaiyyətə çatdıracaq tamaşalar hazırlanmır”.

**İCLAS XARAKTERLİ TƏDBİRLƏR LAZIM DEYİL**

R.Sadıqov tamaşa və filmlərdən fərqli olaraq Zəfər tarixinə həsr edilən musiqilərin nisbətən çox olduğunu düşünür: “Musiqi janrında vəziyyət nisbətən yaxşıdır. Amma biz incəsənət adamlarından bu tariximizi diqqətdə saxlayacaq daha dəyərli nümunələrin ərsəyə gətirilməsini umuruq.

Bakı Xoreoqrafiya Akademiyasında son günlərdə keçirilən tədbirin konsepti məni valeh etdi. Tədbirdə tarixi zəfərin qəhrəmanları da yer alırdı. Zəfər Günü münasibətilə keçirilən tədbirlərin rəngarəngliyi önəmlidir. İclas xarakterli tədbirlər lazım deyil, daha yaradıcı, bədii tədbirlərə üstünlük verilməsi yaxşı olardı. Tədbirin mənəvi, vətənpərvərlik aşılayan tərəfi, duyğusu güclü olmalıdır”.

## KEYFİYYƏTLİ MUSİQİLƏR HƏLƏ Kİ AZDIR

Xalq artisti, professor, Azərbaycan Milli Konservatoriyasının Muğam kafedrasının müdiri, xanəndə Mənsum İbrahimov isə deyir ki, Zəfərimizdən bu günə qədər qələbəmizə həsr edilən onlarla musiqi yazılıb: “Təbii ki, biz bu musiqilərin hər birinə keyfiyyətli deyə bilmərik. Onların içərisində az da olsa sanballı mahnılarımız var. Biz özümüz də Zəfər nəğməsi yazdıq. Bu mahnı cəmiyyət tərəfindən yaxşı qəbul edildi, sevildi. Bir çox mahnılar bizə təklif edildi, lakin mən onları bəyənmədim. Çünki hamısı bir-birinə oxşayırdı. Düşünürəm ki, Zəfərimiz bənzərsiz və tarixidir. Ona görə də, peşəkar, korifey musiqiçilərimiz, bəstəkarlarımız bu işə qol qoymalıdırlar. Müxtəlif musiqi əsərləri yazılmalıdır. Təəssüf ki, bu mövzudan bəhs edən keyfiyyətli musiqilər hələ ki azdır”.



## “ÖRNƏK OLACAQ KEYFİYYƏTLİ İŞLƏR GÖRÜLMƏLİDİR”

Xalq artisti onu da qeyd edib ki, bu mövzuya səviyyəli, dərin mənalı şeirlər həsr edilməlidir: “Dərsliklərə baxırsan, qarşına bəzən elə şeir çıxır ki, təəssüflənirsən. Zəfər Gününə aid şeirlər çoxdur, amma keyfiyyətli misralar azdır. Biz elə böyük zəfər qazanmışıq ki, bu mövzuda kim hansı layihəni, şeiri, musiqini və ya filmi hazırlayırsa, əlindən gələnin ən gözəlini etməlidir. Biz xalq olaraq, dövlət olaraq tarixi qələbə qazanmışıq, bu, mütləq təbliğ edilməlidir. Gənc nəsil böyüyür, gələcək nəsillərə örnək olacaq keyfiyyətli işlər görülməlidir. Qarabağ ilə bağlı şeirlər, vətənə həsr edilən musiqilər, torpaqlarımızın azadlığı uğrunda canından keçən oğullarımızın, şəhidlərimizin xatirəsinə həsr edilən filmlər hazırlanmalıdır”.



Mənsum İbrahimov

**ZAMAN LAZIMDIR...**

Rejissor, ssenarist, “Azərbaycanfilm” kinostudiyasının mətbuat katibi Ramil Ələkbərov isə deyir ki, müharibəni və qələbəni əks etdirən dərin filmlərin ərsəyə gəlməsi hələ tezdir: “Bir deyim var ki, yaxşı müharibə filmi çəkmək üçün bir müddət keçməlidir. Şablon səslənsə də, həqiqətən belədir. Müharibəni müxtəlif rakurslardan təsvir etmək, ssenariləşdirmək asan iş deyil. Hətta zəfər qazanmazdan öncə də, biz filmlərimizdə Qarabağ mövzusuna toxunmuşuq. Həm bədii, həm sənədli, həm də qısametrajlı filmlərdə bu mövzuya geniş yer verilib. Filmlərin hər birinin sonunda zəfər, qalibiyyət ümidi duyulub. Bu filmlərin hər biri tamaşaçı tərəfindən maraqla, rəğbətlə qarşılanıb”.



Ramil Ələkbərov

## ON FİLM ƏRSƏYƏ GƏTİRİLİB

Ramil Ələkbərov deyir ki, tarixi Zəfər qazanıldıqdan sonra İctimai Televiziyanın dəstəyi ilə “Azərbaycanfilm” kinostudiyasında “Görünməz qəhrəmanlar” sənədli filmlər silsiləsi çəkilib: “2021-ci ildən bu günə qədər 10 film ərsəyə gətirilib. Təbii ki, burada danışılan döyüş hekayələrində çox maraqlı faktlar, tarixi anlar üzə çıxır və ssenariləşdirilir. Şübhə etmirəm ki, bu filmlər gələcəkdə tammetrajlı bədii filmlərin mövzusu olacaq”.

**“MALİYYƏ DƏSTƏYİNƏ EHTİYACIMIZ VAR”**

R.Ələkbərov onu da vurğulayıb ki, xüsusilə döyüş, müharibə mövzusunda bədii filmlər üçün böyük məbləğdə maliyyə tələb olunur: “Bu filmlərin istehsalı üçün həm özəl təşkilatların, həm dövlət qurumlarının, həm də mədəniyyət sahəsində keyfiyyətli işlərin ərsəyə gəlməsində maraqlı olan hər bir vətəndaşımızın dəstəyinə ehtiyac var. Mən inanıram ki, hazırda əllərdə bədii film kimi istehsala buraxılması üçün maliyyə dəstəyini, rejissorunu gözləyən layihələr var. 2022-ci ildə Qarabağ mövzusunda film müsabiqəsi keçirilib. Müsabiqədə üç qalib seçilib. Həmin qaliblər, onların ssenariləri çəkiliş üçün maddi dəstək gözləyirlər”.

## ƏHALİNİN DƏMİRYOLUNA ARTAN MARAĞINI QARŞILAYACAQ YENİLİKLƏR OLACAQ

# MARAQ DA ARTIR, GƏLİR DƏ

İnsanlar vaxtında və təhlükəsiz mənzil başına çatmaq üçün sürətli sərnişin qatarları xidmətinə daha çox üstünlük verirlər. Xüsusilə, Abşeron dairəvi dəmiryol xətti üzrə, Sumqayıt-Pirşağı-Bakı, Sumqayıt-Xırdalan-Bakı istiqamətində daha çox sərnişin axını müşahidə olunur.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Azərbaycanda dəmiryolu ilə həm sərnişindaşıma, həm də yükdaşıma gəlirləri nəzərəçarpacaq dərəcədə artıb. Belə ki, bu ilin sentyabr ayında 631 204 sərnişin qatarlarla səyahət edib. "Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) məlumatına görə, bu rəqəm 2022-ci ilin göstəricisindən 46 faiz çoxdur.

Müşahidələrimiz onu göstərir ki, son vaxtlar şəhərdə avtomobillərin çoxluğu, tıxacların yaranması əhalinin dəmiryoluna marağını artırıb. Təsadüfi deyil ki, ADY bu il ərzində beş milyona yaxın sərnişinə xidmət edib.

Maraqlıdır, sərnişinlərin qatarla səyahətə marağını nəzərə alaraq, yaxın gələcəkdə hansısa planlar varmı? Ümumiyyətlə, tıxacların qarşısının alınmasında dəmiryol nəqliyyatı nə dərəcə əhəmiyyətlidir?

### YARIM MİLYARDDAN ARTIQ GƏLİR...

Azərbaycan Dəmir Yolları" QSC-nin mətbuat katibliyi şöbəsinin rəisi Sənubər Nəzərova "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, qurum 2022-ci ildə 2021-ci illə müqayisədə yarım milyarddan artıq gəlir əldə edib: "Gəlirlərimizin əldə olunmasında 88 faiz yükdaşımaların payına düşür. Çünki biz beynəlxalq nəqliyyat dəhlizləri üzrə Azərbaycanı təmsil edirik".

### SƏRNİŞİN AXINI...

Dəmiryoluna marağın artmasına gəldikdə isə, qurum rəsmisi vurğulayır ki, gələn il daha çox sərnişin tələbatını qarşılamaq üçün ADY yeni qatarlar istifadəyə verəcək: "İnsanlar vaxtında və təhlükəsiz mənzil başına çatmaq üçün sürətli sərnişin qatarları xidmətinə daha çox üstünlük verirlər. Xüsusilə, Abşeron dairəvi dəmiryolu xətti üzrə, Sumqayıt-Pirşağı-Bakı, Sumqayıt-Xırdalan-Bakı istiqamətində daha çox sərnişin axını müşahidə olunur. Biz o tələbatı qarşılamaq üçün tədris ilinin əvvəllərində, bayram günlərində marşruta əlavə reyslər təyin edirik".

### "10 YENİ QATARIMIZ OLACAQ"

S.Nəzərova bildirir ki, növbəti ildən 10 yeni qatarla sərnişin tələbatını qarşılayacaqlar: "Bu yaxınlarda əlavə ekspress qatarlarımız da yola düşdü. Aralıq stansiyada dayanmadan Bakı-Sumqayıt, Sumqayıt-Bakı istiqamətində daha minlərlə sərnişin mənzil başına rahat çatdırılır. O cümlədən, biz 10 ədəd "Stadler" qatarının alınması ilə bağlı bir neçə il əvvəl müqavilə imzalamışdıq. Qatarların dördü ilin sonunda, altısı isə gələn ilin əvvəlində gələcək. Yəni, gələn il ümumilikdə daha 10 yeni qatarımız olacaq və daha çox sərnişinin tələbatını qarşılamağa çalışacağıq".






Sənubər Nəzərova

## TIXACLARIN AZALDILMASINDA DƏMİRYOLUNUN ROLU VARMI?

Memarlıq və İnşaat Universitetinin nəqliyyat fakültəsinin baş müəllimi Bulud Bağırov deyir ki, tıxacların azaldılmasında dəmiryol nəqliyyatının rolu danılmazdır: "Dəmiryol nəqliyyatı dünyada da sərnişindaşıma, yüksək daşıma qabiliyyəti, komfort və təhlükəsizlik göstəricilərinə görə seçilir. Bu nəqliyyat növü ekoloji cəhətdən təmiz nəqliyyat növlərindən biri sayılır. Hazırda yüklər və sərnişinlər əsasən elektrik dartı sistemində işləyən qatarlarla daşınır. Bu gün Bakıda avtomobillərin sayı çoxdur və tıxaclar səbəbindən insanlar mənzil başına vaxtında çata bilmirlər. Həm əsəbləri gərilir, həm də bu nəqliyyat vasitələrinin çoxluğu havanı zəhərləyir. Bu səbəbdən əhali qatarlara yönəlir".

### BU NƏQLİYYAT NÖVÜ DİGƏRLƏRİNDƏN ÜSTÜNDÜR

Mütəxəssis vurğulayır ki, bir çox göstəricilərə görə dəmiryol nəqliyyatının digər nəqliyyat növləri ilə müqayisədə üstünlükləri çoxdur: "Bunlara yüksək təhlükəsizlik dərəcəsi, tıxacların olmaması, səyahət müddətində göstərilən xidmətlər daxildir. Yəni qatarlarda sanitar qovşaqlar mövcuddur, müxtəlif qida aparatları yerləşdirilə bilər. Dəmiryol nəqliyyatı insanların avtonəqliyyat vasitələrindən istifadə etməyərək, qısa vaxt ərzində getdikləri məntəqəyə çatmasını təmin etdiyi üçün insanlar buna üstünlük verirlər".

## TIXACLARLA MÜBARİZƏ ÜÇÜN TRAMVAY YOLU BƏRPA EDİLMƏLİDİR

Həmsöhbətimiz deyir ki, əgər tıxaclarla mübarizə aparmaq və qarşısını almaq istəyiriksə, dəmiryolu ilə yanaşı, tramvay yolu da fəaliyyət göstərməlidir: "Tramvay ictimai nəqliyyatın ən əhəmiyyətli vasitələrindən biridir. Təəssüf ki, 2000-ci illərin əvvəllərində bu sistem bizdə ləğv olundu. Amma bu, səhv addım idi. Şəhərdə ictimai nəqliyyatı inkişaf etdirmək, tıxacların qarşısını almaq üçün ilk növbədə tramvay yolu bərpa edilməlidir. Məsələn, avtobus iki qoşqudan ibarət olursa, tramvay 3-4 və daha artıq qoşqudan ibarət olur. Tramvaylar da qatarlar kimi ekoloji cəhətdən önəmlidirlər. Həm hava çirklənmir, həm də insanlar rahatlıqla mənzil başına çatırlar".

Mütəxəssis deyir ki, amma tıxac problemini tək dəmiryol nəqliyyatı ilə həll etmək mümkün deyil: "İctimai nəqliyyatda istər təhlükəsiz, istərsə də sürətli çatdırılma baxımından qatarlar avtobuslardan əhəmiyyətlidir. Amma artıq qatarlar da buna tab gətirmir. Alternativ nəqliyyat növləri yaradılmalıdır".



# PARKLANMA İLƏ BAĞLI BİTMƏYƏN PROBLEMLƏR




Şəhərin mərkəzində vətəndaş avtomobilini dövlətin pullu parklanma yerlərində saxlamağa məcburdur. Bu da gün ərzində xeyli məbləğ deməkdir. Çıxış yolu olaraq parkinq tariflərinə yenidən baxılması təklif edilir. Bu, realdırmı?



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Parklanma ilə bağlı yeni qaydalar avtomobillərini uzunmüddətli park edənlər üçün müəyyən problemlər yaradıb. Mövcud vəziyyətdən çıxış yolu olaraq bəzi ekspertlər qiymətlərə yenidən baxılmasını təklif edirlər. Bu təkliflərə dəstək verən deputatlar da var. Bəs parkinq qiymətlərində dəyişiklik edilməsi nə dərəcədə realdır?

### İMTİYAZLARIN HAZIRDA DA MÖVCUD OLDUĞU DEYİLİR

Nəqliyyat eksperti Adil Nəbiyev "Kaspi" qəzetinə açıqlamasında dedi ki, Nazirlər Kabineti tərəfindən parklanma yerinin idarə edilməsi ilə bağlı qəbul edilən yeni qaydalar həm tarifləri, həm şəhərin tarif zonalarını, eyni zamanda yığılan vəsaitin xərclənmə istiqamətini müəyyən edir. Parklanma yerlərinin yeni qaydalar əsasında idarə edilməsi bu sahədə nizam-intizamın yaradılmasına, qanunsuz pul yığımının qarşısını almaqla maliyyə şəffaflığının təmin olunmasına xidmət edir.

A.Nəbiyevin sözlərinə görə, ödənişlə bağlı hazırda da müəyyən güzəştlər mövcuddur: "Yol hərəkəti haqqında" qanuna əsasən, ödənişli parklanma yerlərində nəqliyyat vasitələrinin 15 dəqiqəyədək parklanması üçün də ödəniş tələb olunmur. Şəhərin hansısa hissəsində parkinqə olan tələbat azdırsa, bu ərazidə qiymət tənzimlənməsi tətbiq edilmir. Yaşayış yeri parklanma zonasına yaxın olan sakinlərdən də ödəniş tələb olunmur. Bunun üçün xüsusi parklanma talonları mövcuddur. Qanunvericiliyə əsasən, ödənişli parklanma ilə bağlı digər hallarda isə imtiyazlar nəzərdə tutulmayıb".

### PARKLANMA ÜÇÜN ƏLAVƏ YERLƏRƏ EHTİYAC VAR

Nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərov bildirdi ki, parklanma ilə bağlı problemlərin əsas səbəbi yerlərin məhdud sayda olmasıdır: "Bu problem artıq özünü kəskin şəkildə büruzə verir. Problem ondan qaynaqlanır ki, hazırda Bakı şəhərində olan obyektlərin böyük əksəriyyətinin parklanma yeri yoxdur. Parklanma yerini yaşayış, qeyri-yaşayış obyektləri, onların sahibləri yaxud da qurum rəhbərləri təşkil etməyə borcludurlar. Amma təşkil etməyiblər. Məsələn, xəstəxana, alış-veriş mərkəzi, biznes mərkəzi, idarə və təşkilatların parklanma yerləri yoxdur".

E.Cəfərovun fikrincə, hazırda parklanma qiymətlərinə yenidən baxılması və endirim və güzəştlərin edilməsi daha doğru addım olardı: "Boş yer tapa bilmədiyi üçün vətəndaş avtomobilini dövlətin balansında olan pullu parklanma yerində saxlamağa məcburdur. Bu da gün ərzində xeyli məbləğ deməkdir. Mən də tərəfdarıyam ki, məbləğlər yuvarlaqlaşdırılmalıdır. Məsələn, əgər şəhərin mərkəzində bir saatı bir manatdırsa, 4-5 saat mütəmadi maşınını saxlayan, həmin ərazilərdə işləyən şəxslər üçün güzəşt olunması doğru addım olardı. Yaxud, ümumiyyətlə saatı bir manatdan daha aşağı məbləğə endirilməlidirlər ki, vətəndaşlarımız üçün parklanma yerləri daha əlçatan olsun və problemlər yaranmasın".

## VƏZİYYƏTİ ANCAQ QİYMƏT SİYASƏTİ İLƏ TƏNZİMLƏMƏK OLAR

Nəqliyyat eksperti Yasin Mustafayev isə düşünür ki, hazırda parkalnma qiymətləri aşağı salınsa, bu halda vəziyyət daha da acınacaqlı olacaq: "Parklanmanın qiyməti tələb və təkliflə bağlıdır. Şəhərin mərkəzi hissələrində yer məhduddur. Adam var 15-20 dəqiqəlik hansısa quruma, idarəyə, şirkətə gəlir, yarım saat, bir saat maşını saxlayıb işini görüb gedir. Şəhərin mərkəzində bir manata, bir az kənarda 70 qəpiyə saxlayır. 5-10 saat saxlayan adam üçün bu, böyük bir məbləğdir. Amma məbləği də aşağı salıb bütün günü o yeri zəbt etmək başqalarının haqqına girmək hesab olunur. Şəhər mərkəzinə, parklama yerləri məhdud olan zonalara çox vaxt maşınsız getmək lazımdır. Bu layihə ictimai nəqliyyatdan daha çox istifadə etmək, populyarlığını artırmaq, insanları bu istiqamətə yönəltmək üçün reallaşdırılır. Qiymət aşağı salınsa, adamlar səhər maşını saxlayacaq, bir də işdən çıxanda götürüb gedəcək. Yeri ancaq qiymət siyasəti ilə məhdudlaşdırmaq, tənzimləmək olar. Qiymətlərə yenidən baxılacağını və aşağı endiriləcəyini düşünmürəm".

### KİM 6-7 MANAT VERMƏK İSTƏMİRSƏ...

Y.Mustafayev bildirdi ki, bahalı parklanma yerlərindən bir az kənarda maşını saxlayıb mərkəzə piyada və ya ictimai nəqliyyatla gəlmək mümkündür: "Parklama ilə bağlı bir boşluq görmürəm. Xidmətlə bağlı əməkdaşlar da həmişə ərazidə olur. Mobil tətbiqin istifadəsi də çox rahat, praktikdir. Mənim heç bir iradım yoxdur. Bir məsələ ilə bağlı qərar veriləndə, təbii ki, hamını razı salmaq mümkün deyil. Əgər istəyiriksə ki, şəhər tıxacdan azad olsun, çətinliklərdən qurtulaq, bunun üçün ictimai nəqliyyata keçməliyik. Bir az kənarda maşını saxlayıb daha ucuz, bəlkə də pulsuz parklanma yeri tapmaq mümkündür. Kim 6-7 manat vermək istəmirsə, bir az kənarda saxlaya, ictimai nəqliyyatdan istifadə edə bilər. Qiymətləri yenidən endirmək haqqında düşünsək, o zaman şəhərdə nəqliyyatın sıxlığı daha da artacaq".



Eldəniz Cəfərov

Adil Nəbiyev

Yasin Mustafayev

# SOCAR-IN DƏSTƏYİ İLƏ YENİ LAYİHƏYƏ START VERİLDİ

"QAZandım" layihəsində əhalinin təbii qazla təmin edilməsinə yönəldilmiş texnoloji və texniki tədbirlərin görülməsi, eləcə də yeni qaz kəmərlərinin tikintisi nəzərdə tutulub.

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) dəstəyi ilə "Azəriqaz" İstehsalat Birliyi yeni "QAZandım" transformasiya layihəsinə start verib.

"Report"un "Azəriqaz"a istinadən verdiyi məlumata görə, qaz təchizatı sisteminin müasir standartlar səviyyəsində qurulması və müasir texnologiyaların tətbiqi, eyni zamanda İstehsalat Birliyini kommunal xidmətlər arasında nümunəvi təşkilata çevirmək məqsədi ilə 2023-cü ildən yeni strategiya işlənib hazırlanıb. "QAZandım" layihəsində Birliyin gələcəyə baxışının və məramının ətraflı qeyd olunduğu strategiya uzunmüddətli perspektivə hesablanan üç əsas komponentə ayrılır: Bunlar biznes səmərəliliyi, o cümlədən əməliyyat mükəmməlliyi, kommersiya fəaliyyətinin təkmilləşdirilməsi və şəbəkə inkişafı, ikincisi şərtləndirici amillər, o cümlədən texnoloji və rəqəmsal həllər və yeni iş modelinə keçid, həmçinin, tənzimləyici rejim və standartlar.

Qeyd olunanların icrası qaz təsərrüfatı sahəsində strukturun təkmilləşdirilməsinə, insan kapitalının və korporativ mədəniyyətin formalaşmasına, ətraf mühitə ziyan vurmadan, təbii qazdan istifadə edən bütün istehlakçıları fasiləsiz, keyfiyyətli və təhlükəsiz qaydada təbii qazla təchiz etməklə müştəri məmnuniyyətinə nail olmağa təkan verəcək. "QAZandım" layihəsində əhalinin təbii qazla təmin edilməsinə, ölkənin mövcud qaz şəbəkəsi sisteminin ayrı-ayrı hissələrinin yenidən qurulmasına, avadanlıqların istismara yararlı halda saxlanılmasına yönəldilmiş texnoloji və texniki tədbirlərin görülməsi, eləcə də yeni qaz kəmərlərinin tikintisi də nəzərdə tutulub.



# İSTEHSALI AZALSA DA, BAHALAŞMASI GÖZLƏNİLMİR




KARTOF İSTEHSALI

**Bu il hava şəraitindən asılı olaraq kartof yığımında azalma müşahidə edilir. Əsasən dağlıq və dağətəyi bölgələrdə havalar yağmurlu keçib. Ekspertlər bildirirlər ki, bu amil kartof yığımını gecikdirir.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

2023-cü ilin yanvar-sentyabr aylarında Azərbaycanda 49 min 77.4 hektar sahədən 981 min 927 ton kartof yığılıb. Dövlət Statistika Komitəsinin hesablamalarına görə, bu göstəricinin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 3.9 faiz və ya 40 min ton azdır. Belə ki, 2022-ci ilin yanvar-sentyabr aylarında 54 min 66.7 hektar sahədən bir milyon 21.9 min ton məhsul yığılıb.


Bəhruz Nəzərov

Statistika bizə onu deyir ki, kartof istehsalı azalıb. Ölkəmizə xarici ölkələrdən də kartof idxal edilir. İstehsal azalsa da, idxal vasitəsilə məhsul tələbatı kompensasiya edilmiş olur. Amma Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi tərəfindən 23 oktyabr tarixindən İranın bəzi şirkətlərinin ölkəmizə kartof idxal etməsinə də qadağa qoyulub. Belə qadağalar nə ilk, nə də son deyil. İstehsalın bu il az olması, idxala icazə verilməməsi qış mövsümündə kartofun kəskin bahalaşmasına səbəb olarmı? Bazarlarda kartof qıtlığını müşahidə oluna bilərmi?

### İNTENSİV YAĞIŞLAR MƏHSULDARLIĞA CİDDİ TƏSİR EDİB

Kənd təsərrüfatı və aqrar məsələlər üzrə mütəxəssis Bəhruz Nəzərov "Kaspi" qəzetinə açıqlamasında dedi ki, əgər qıtlıq ehtimalı olarsa, müəyyən tədbirlər görüləcək: "Həm tərəvəz məhsulları, həm pambıq istehsalında azalma müşahidə edilir. Bunun əsas səbəblərindən biri son aylarda yağıntıların intensivləşməsidir. Hava şəraiti, iqlimin məhsuldarlığa böyük təsiri var. Amma bunun qıtlığa səbəb olacağına inanmıram. Bu hal yaşanarsa, dövlət tərəfindən xaricdən məhsul gətirməklə bağlı tədbirlər görüləcək və problem həll ediləcək".



## İSTEHSALIN AZALMA SƏBƏBİ DƏQİQLƏŞDİRİLMƏLİDİR

P.Heydərov bildirdi ki, istehsalın azalması məsələsi mütləq nəzarətə götürülməli və bununla əlaqədar tədbirlər görülməlidir: "Bilavasitə, kartofun istehsalının azalmasına təbii şərait, məhsuldarlıq, mövsümi amillər və istehsalla bağlı digər maya dəyəri ilə əlaqədar problemlər səbəb ola bilər. Amma hər bir halda bu məsələ nəzarətə götürülməlidir. İstənilən kənd təsərrüfatı məhsulu üzrə yerli istehsalın və tədarükün azalması amilləri dərhal analiz olunmalı, təhlil edilməli və müvafiq tədbirlər görülməlidir. Yerli istehlak bazarı onsuz da idxaldan asılıdır. Bu prosesə nəzarət olmasa, idxaldan daha çox asılı vəziyyətə düşə bilərik".


Pərviz Heydərov

## AZALMANIN MİQDARI ÇOX DEYİL

Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu Publik hüquqi şəxsin İdarə Heyətinin sədri Elmar Allahverdiyev bildirdi ki, əslində hazırda kartof yığımı yekunlaşmalı idi. Lakin müəyyən səbəblərdən bəzi rayonlarımızda proses hələ də davam edir: "Kartof yığımının azalması müxtəlif səbəblərdən ola bilər. Amma bu, o dərəcədə ciddi rəqəm deyil. Xüsusilə, builki hava şəraitindən asılı olaraq məhsul yığımında bir qədər azalma müşahidə edilir. Əsasən dağlıq və dağətəyi bölgələrdə havalar yağmurlu keçdi. Bu da kartof yığımını gecikdirir. Gədəbəyin bəzi bölgələrində bu dəqiqə kartof yığımı davam edir. Hava şəraiti əlverişsiz olduğuna görə yığım prosesi gecikir, xəstəliklər artır. Bu da məhsuldarlığa mənfi təsir edir".

### "BU İL KARTOF QITLIĞI GÖZLƏNİLMİR"

E.Allahverdiyevin sözlərinə görə, kartof indi daha ucuzdur: "Bu il kartof qıtlığı gözlənilmir. Çünki ölkədə istehlak səbətimiz təxminən 950 min - bir milyon ton arasıdır. Bu göstərici istehsaldan azdır. İstehsalımız ərzaq səbətimizə tamamilə təmin edəcək qədərdir. Qış mövsümündə kartofun bahalaşacağı gözlənilmir. Bazarlarda bir ay əvvəl kartof daha baha idi, amma indi ucuzdur. Xüsusilə aran bölgəsindən, iri sahələrdən, fermerlər tərəfindən yığılan kartof hazırda soyuducu anbarlarda saxlanılır. Bir azdan həmin məhsul anbarlardan bazarlara satışa göndəriləcək. Bu səbəbdən, bu il ölkədə kartof qıtlığının olacağını düşünmürəm".

### İSTEHSALIN AZALMASI İDXALI STİMULLAŞDIRIR

İqtisadi məsələlər üzrə ekspert Pərviz Heydərov dedi ki, kartof istehsalının azalması idxaldan asılılığı daha da artıra bilər: "Yerli istehsalın azalması istənilən halda mənfi tendensiyadır. Çünki bu, istər-istəməz idxalı stimullaşdırır. İdxal məhsulları çoxluq təşkil edəndə bazarda qiymətlər həmin məhsulları idxal edən sahibkarların diktəsi ilə formalaşır. Son günlər periodik olaraq ölkəyə kartof və bir sıra kənd təsərrüfatı məhsullarının idxalı üzrə müəyyən məhdudiyyətlər də tətbiq olunur. Yaxud həmin məhsullar keyfiyyətsiz xarakter daşıdığından özümüz onlardan imtina edirik və qadağa qoyuruq. Əgər yerli istehsal da azalmış hesab olunursa, belə olan halda təbii ki, ölkədə kartof üzrə qiymətlərin bahalaşması ehtimalı böyükdür".


Elmar Allahverdiyev

Kaspi
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rufik İsmayılov, Xanım Aydın, Könül Cəfərli, Kubra Məhərrəmova, İlhamə Əbülfət, Aysel Aslan, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 2953
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

QEYRİ-LEQAL FƏALİYYƏT GÖSTƏRƏN QIZIL BAZARININ RİSKLƏRİ

# NƏZARƏTSİZ QALAN QIZIL BAZARI



Azərbaycanda zərgərlik bazarının bir hissəsinin qeyri-leqal fəaliyyət göstərdiyi rəsmi səviyyədə təsdiqlənib. Bu sahədə istehlakçı hüquqlarının kifayət qədər pozulduğu, bazarda müəyyən tənzimləyici alətlərlə əlaqədar təkmilləşdirilmə işlərinin aparılmasının vacib olduğu bildirilib.





AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Zərgərlik bazarında saxta məhsulların satılması ilə bağlı iddialar artıb. Bu sahəyə hazırda nəzarətin istənilən səviyyədə olmaması səbəbindən bazarda aşağı keyfiyyətli malların kifayət qədər çox olduğu, vətəndaşların aldadıldığı iddia edilir. Hətta KOBİA İdarə Heyəti sədrinin I müavini Natiq Həsənov da bu bazarın bir hissəsinin qeyri-leqal fəaliyyət göstərdiyini təsdiqləyib. Dövlət rəsmisi bu sahədə istehlakçı hüquqlarının kifayət qədər pozulduğunu, bazarda müəyyən tənzimləyici alətlərin tələblərinin tam yerinə yetirilməməsi ilə əlaqədar təkmilləşdirmə işlərinin aparılmasının vacib olduğunu bildirib.

Bəs zərgərlik məhsulları bazarında hansı zəruri tədbirlər görülməlidir? Ümumiyyətlə, təkmilləşdirilmə işlərinin aparılması bu bazara necə təsir edəcək?

### QURUNUN ODUNA YAŞ DA YANIR?

Azərbaycan Zərgərlər Assosiasiyasının sədri Toğrul Abbasquliyev deyir ki, zərgərlik bazarında əhəmiyyətli paya malik olan bazar iştirakçıları, istehsalçılar əvvəlki Əyar Palatasının funksiyalarını icra edən qurumun fəaliyyətə başlamasının tərəfdarıdırlar. Çünki, saxta məhsullarla bağlı yayılan xəbərlər bu bazara mənfi təsir edir, işini düzgün görən istehsalçılara da inamı sarsıdır. Mütəxəssisin sözlərindən məlum olur ki, çıxan xəbərlərlə qurunun oduna yaş da yanır: "Saxta məhsullarla bağlı xəbərlərdə konkret halların səsləndirilməsi, saxta məhsul satanın ifşa olunması daha faydalı olar. Çünki ümumi fikir səsləndirildikdə, həm bazarın, həm də illərdir dürüst işləyən, müəyyən alıcı kütləsi olan zərgərlərin adına xələl gəlir. Biz belə halların olmasını inkar edə bilmərik. Çünki nəzarət edən struktur yoxdur. Əvvəllər Qiymətli Daşlara və Metallara Nəzarət Dövlət Xidməti var idi, o qurum da fəaliyyət göstərmir. Əgər elə bir qurum olsa idi, təbii ki, istehsalçıların və istehlakçıların da hüquqları qorunardı".


Toğrul Abbasquliyev

### BU, ARTIQ SAXTAKARLIQ DEYİL

Assosiasiya sədri deyir ki, alıcı kütləsində də müəyyən stereotiplər var. Biz nəyə saxta deyirik, əvvəlcə o araşdırılmalıdır: "Zərgərlik sənayesinin müəyyən qanunları var. Məmulatın tərkibində səkkiz karatdan, əyarla desək, 333 əyardan yuxarı qızıl varsa, o artıq qızıl sayılır. Düzdür, bu hələ Azərbaycanda geniş yayılmayıb, əsasən Qərbi Avropa ölkələrində, Amerikada belədir. Amma Azərbaycanda ən məşhur iki əyar var. Biri 585 (14 karat), buna xalq arasında türk qızılı da deyirlər, digəri 750 (18 karat), xalq arasında italyan qızılı da adlanır. Əslində, italyan, türk qızılı adlandırmaq da düzgün deyil. Çünki İtaliyada da 585, Türkiyədə də 750 əyar qızıl var. Qiymətli daşlara gəldikdə, satıcı alıcıya daşın təbii brilyant, yaxud süni şəraitdə yetişdirilməsi ilə bağlı məlumat verməlidir. Əgər satıcı bunu bildirirsə, bu, artıq saxtakarlıq deyil".

### QIZILIN SAXTA OLMADIĞINI NECƏ BİLMƏK MÜMKÜNDÜR?

Mütəxəssis qeyd edir ki, alıcı qızılın saxta olub-olmadığını müəyyənləşdirə bilməz: "Kustar üsulla, ev şəraitində bunu bilmək mümkün deyil. Hər biri laboratoriya şəraitində yoxlanmalıdır. Bu işlə qiymətli daşlar üzrə mütəxəssislər (gemoloqlar) məşğul olurlar".

Assosiasiya sədrinin sözlərinə görə, günahkar həmişə istehsalçı olmur. İstehlakçı da öz məsuliyyətini bilməlidir: "Məsələn, satıcı qiymət deyir, alıcı deyir ki, daha ucuz olsun. Bu, həm onun özünü risk altına atır, çünki, mənşəyi bəlli olmayan məhsul o qiymətə verilə bilər. Həm də sahibkarı vergidən yayınmağa sövq edir. Əgər istehlakçı kassa çeki, məmulatın bütün xüsusiyyətləri qeyd olunan sertifikat tələb etsə, saxtakarlıqla üzləşməz".

## ZƏRGƏRLİK BAZARINDA ALICILAR NƏDƏN NARAZIDIRLAR?

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyir ki, zərgərlik bazarında ən çox şikayətlər alıcıların aldığı malı qaytara bilməməsi ilə bağlıdır: "Nazirlər Kabinetinin 114 saylı qərarına görə qiymətli metallar, o cümlədən qızıl zərgərlik məmulatları, dəyişdirilməyən və qaytarılmayan mallar siyahısındadır. Çox təəssüf ki, bu, istehlakçı hüquqlarını pozur və bundan sui-istifadə edənlər də az deyil. Bəzi satıcılar da bunu bildiyi üçün keyfiyyətsiz malı vətəndaşa satır, sonra da qanunu əsas göstərərək qaytarmır".

### ƏVVƏLLƏR QIZILIN ÜZƏRİNDƏ ROMB DAMĞASI OLURDU

Şikayətlərin məğzinə gəldikdə isə, E.Hüseynov bildirir ki, onlara gələn şikayətə görə, satıcı alıcıya 20 000 manata işlək olmayan saat satıb: "Qızıl saatdır, amma növbəti gündən sonra saat işləməyib. Dəyişmək, yaxud qaytarmaq istədikdə isə deyirlər ki, bu qiymətli metaldan hazırlanıb, ona görə nə dəyişirik, nə də qaytarırıq. İllər boyu ölkədə Əyyar Palatası var idi. Bu palata qızıl məmulatlarını yoxlayır, üzərinə romb damğası vururdu. Bizə müraciət edən şəxslərə deyirdik ki, harada romb damğası varsa, onlara üstünlük verin. Yeddi ildən çoxdur ki, bu palata ləğv olunub, bu sahə demək olar ki, başlı-başına qalıb. Belə qurum yaradılarsa, alıcıların da hüquqları qorunacaq".


Eyyub Hüseynov

## DÖVRİYYƏMİZ 220-230 MİLYONA ÇATACAQ

Azərbaycan Zərgərlər Assosiasiyasının sədri Toğrul Abbasquliyev təəssüflə bildirir ki, bu gün də MDB zərgərlik bazarında ən keyfiyyətli məhsullar Azərbaycan məhsulları sayılır, lakin ölkəmizdə öz məhsullarımız o qiyməti görmür: "Azərbaycanda zərgərlik sənəti kifayət qədər qədimdir. Hələ sovet vaxtından Bakı Zərgərlik Zavodu Moskva Zavodundan sonra ikinci yerdə idi. Bu gün də MDB bazarında ən hörmətli, ən keyfiyyətli məhsullar Azərbaycan məhsulları sayılır. Əfsuslar olsun ki, Azərbaycanın öz alıcılarının inamı yoxdur. İtaliya, Türkiyə, Avropa, ABŞ məhsulları olar, amma Azərbaycan olmaz. Bu, çox səhv yanaşma və stereotipdir".

T.Abbasquliyev sonda vurğuladı ki, zərgərlik məhsulları bazarında təkmilləşdirilmə işlərinin aparılması bu sahəyə müsbət təsir edəcək: "2022-ci ilin nəticələrinə görə, bazarımızın dövriyyəsi 153 milyon manat olub. Bu il də proqnozumuza görə, dövriyyəmiz 220-230 milyona çatacaq. Bu sahənin inkişafı qeyri-neft sektorunun şaxələnməsinə töhfə verəcək".

# TƏBİƏT DƏYİŞİR, BƏS BİZ?

Ölkəmizin bəzi bölgələrində yay aylarında temperatur hətta 44-47 dərəcəyə çatıb. Bu, həm insan sağlamlığına, kənd təsərrüfatına, həm də su ehtiyatlarına təsir göstərir. Nəticədə su ehtiyatlarımız son 30 ildə 15 faizədək azalıb.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Son zamanlar iqlim dəyişikliyinin fəsadlarını daha çox hiss edirik. Alimlərin proqnozlarına görə, qarşıdakı illərdə dünyada sel və daşqınların sayı 80 faiz artacaq. Həmçinin, Azərbaycanda da 2023-cü ilin yay fəslində daşqınlar əvvəlki illərdən üç dəfə çox olub. Bu, ölkəmiz üçün rekord göstəricidir. Xəzər dənizi ilə bağlı da vəziyyət ürəkaçan deyil. Kür çayı artıq iki ildir ki, Xəzər dənizinə şirin su gətirə bilmir. Xəzərdə suyun səviyyəsinin düşməsi gəmilərin hərəkətinə mane olur. Bir sözlə, təbiət tamamilə yeni iqlim şərtləri formalaşdırır. Bəs biz bu yeniliklərə nə dərəcədə hazırıq?

### İSTİ GÜNLƏRİN SAYI ARTIR

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ekoloji siyasət şöbəsinin rəis müavini Rafiq Verdiyev "Kaspi" qəzetinə açıqlamasında dedi ki, son illər iqlim dəyişmələri özünü dünyanın bir çox bölgələrində büruzə verir. Bu, qlobal xarakter daşıyır deyə, "qlobal iqlim dəyişmələri" adlanır: "Atmosferə atılan istixana qazlarının miqdarı kifayət qədər yüksəkdir. Bu qazlar günəş radiasiyasının yer səthində əks olunmasını çətinləşdirir. Nəticədə qlobal səviyyədə temperaturun artması müşahidə edilir. Dünyanın bir çox bölgəsində temperatur son 30 ildə orta hesabla 1,7 dərəcəyədək artıb. Azərbaycanda bu göstərici 1,4 dərəcədir. İsti günlərin sayı artır".

### 44-47 DƏRƏCƏ İSTİLƏR

R.Verdiyev bildirdi ki, qlobal istiləşmə mülayim tərzdə baş verir: "Temperatur, buxarlanma tədricən artır, yağıntılar azalır və quraqlıq baş verir. Eyni zamanda, təhlükəli hidrometeoroloji hadisələrin sayında və təkrarlanmasında da artım müşahidə olunur. Ölkəmizin bəzi bölgələrində temperatur hətta 44-47 dərəcəyə çatıb. Bu, həm insan sağlamlığına, kənd təsərrüfatına, həm də su ehtiyatlarına təsir göstərir. Nəticədə su ehtiyatlarımız son 30 ildə 15 faizədək azalıb. Xəzər dənizinin səviyyəsi düşür. Birbaşa dəniz səthinə düşən yağıntılar da azalır".



### ORTA TEMPERATUR 4-5 DƏRƏCƏ ARTA BİLƏR

Müsahibimizin sözlərinə görə, əgər atmosferə atılan istixana qazlarının miqdarı tənzimlənməsə, proses gələcəkdə daha da kəskinləşə bilər: "Əsrin sonunda temperatur 4-5 dərəcə də artacaq. 2016-cı ildə Paris razılaşmasına biz də qoşulduq. Həmin razılaşmada qeyd olunur ki, xüsusilə sənaye ölkələri bu sahədə ciddi addım atmalıdır ki, temperatur artımını 1,5 dərəcədə saxlaya bilsinlər. Bu yaxınlarda Qlazqoda keçirilən tədbirdə də bu, xüsusi qeyd edilib. Xüsusilə Amerika Birləşmiş Ştatları, Çin, Rusiya kimi iri sənaye ölkələrindən tələb olunur ki, atmosferə atılan qazların miqdarını tənzimləsinlər".

R.Verdiyev qeyd etdi ki, Azərbaycan da təbiəti qorumaq üçün müəyyən addımlar atır: "Biz həmin siyahıya daxil olan ölkələr sırasında deyilik. Çünki ölkəmizdə sənaye tullantısı o qədər yoxdur. Lakin beynəlxalq konvensiyalar, razılaşmalara qoşulduğumuz üçün könüllü öhdəlik götürmüşük ki, yaxın illər ərzində atılan qazların miqdarını 35 faizə qədər azaldaq".

Ekspertin fikrincə, prosesin qarşısı alınmasa, gələcəkdə sel, daşqın, isti hava dalğaları, kəskin hidrometeoroloji proseslər daha da kəskinləşəcək. Su ehtiyatlarımız azalacaq, Xəzərin səviyyəsinin aşağı düşməsi prosesi, səhralaşmağa meyllilik daha da yüksək olacaq. Daha rütubətli, mülayim, nəm qurşaqlar quru qurşaqlarla əvəzlənəcək. Bu, xüsusilə son dövrdə hiss olunub. Nəm qurşaqların hündürlüyü təxminən 400-500 metr yuxarı qalxıb.




## İQLİM DƏYİŞMƏLƏRİNƏ UYĞUNLAŞMA STRATEGİYASI HAZIRLANIR

Müsahibimiz bildirdi ki, iqlim dəyişmələrinə həssaslıq çox yüksək olduğundan, biz mübarizəni daha səmərəli aparmaq üçün ciddi işlər görməli, beynəlxalq qurumlarla əməkdaşlıq etməliyik: "İqlim dəyişmələrinə adaptasiya proqramı, iqlim dəyişmələri üzrə Dövlət Komissiyası fəaliyyət göstərir, işçi qrup var. Məqsəd iqlim dəyişmələrinə uyğunlaşma strategiyasının hazırlanmasıdır ki, orada da müxtəlif sektorlar, sahələr üzrə müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Planın hazırlanması sahəsində artıq işlər aparılır. Yaxın zamanlarda plan hazır olduqdan sonra nəzərdə tutulan işlərin mütəmadi, ardıcıl olaraq həyata keçirilməsi lazımı səviyyədə aparılarsa, biz də iqlim dəyişmələrinin təsirinə müqavimət göstərə biləcəyik".




### ÇAYLARDA NORMAL AXIN YOXDUR

Ekoloq Rövşən Abbasovun fikrincə, son 150 ildə atmosferdə karbon qazı konsentrasiyalarının artması nəticəsində ekstremal təbiət hadisələrinin tezliyi artır. Məsələn, əgər çayda əvvəl daha çox normal axın görürdüksə, indi daha çox daşqınlar və quraqlıq görürük. Yəni axının il ərzində paylanılması elə dəyişib ki, biz daha çox təbiətin ekstremal şəraiti ilə qarşılaşırıq.

R.Abbasov qeyd etdi ki, bu təbiət hadisələrinə uyğunlaşmaq lazımdır: "Hazırda əksər ölkələrdə milli adaptasiya layihələri həyata keçirilir. Azərbaycanda da BMT-nin İnkişaf Proqramı ilə birlikdə milli adaptasiya proqramına dəstək layihəsi həyata keçirilir və ekstremal təbiət hadisələrinin, quraqlığın, daşqınların idarə olunması sahəsində müxtəlif işlər görülür. Bu, əsasən su ehtiyatlarının və sahil ekosistemlərinin idarə olunmasını nəzərdə tutur. Məsələn, bu yaxınlarda Prezident fərman verib ki, 10 yeni su anbarı tikilsin. Bu da uyğunlaşmanın bir növüdür. Quraqlığın idarə olunmasının əsas yollarından biri az su tələb edən texnologiyalara keçiddir. Quraqlığa davamlı bitkilər əkə bilərik. Damcı, damla, çiləmə suvarması var. Bunlar ənənəvi suvarma ilə müqayisədə daha az su tələb edir və nəticələri daha yaxşıdır".

### ERKƏN XƏBƏRDARLIQ SİSTEMLƏRİ

Ekoloq düşünür ki, daşqınların idarə olunmasında erkən xəbərdarlıq sistemlərinin rolu çox böyükdür: "Düzgün proqnozlar tərtib olunmalıdır. Erkən xəbərdarlıq sistemləri vasitəsilə əhali əvvəlcədən məlumatlandırılmalıdır. Azərbaycanda artıq bu sistemlər fəaliyyət göstərir".

R.Abbasov dedi ki, digər ekstremal hadisə yay aylarında baş verən istilik dalğalarıdır: "İstilik dalğası deyəndə 35 dərəcədən yuxarı olan temperaturu nəzərdə tuturuq. Bu zaman meteohəssas, ürəyi xəstə olan insanlarda müəyyən fəsadlar əmələ gələ bilər. Bu istiqamətdə spesifik proqnozlar hazırlanmalı və yerli icmalar məlumatlandırılmalıdır".

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
8 NOYABR ÇƏRŞƏNBƏ 2023
www.kaspi.az





Fotolar: Sabir Məmmədov / Global Media Group

# "BALACA FUTBOL"UN BÖYÜK İNKİŞAFI

Minifutbol Avropada 1996-cı ildə rəsmi status alıb. O vaxta qədər qeyri-rəsmi formatda müxtəlif turnirlər, çempionatlar keçirilib. Hazırda minifutbolun çiçəklənmə dövrünü yaşadığını söyləsək, yanılmarıq. Artıq UEFA-nın 55 üzvündən 50-si bu idman növü üzrə yarışlarda çıxış edirlər.

Minifutbol son illərdə ən çox inkişaf edən və məşhurlaşan idman növlərindəndir. Hazırda dünyanın əksər ölkələrində daxili minifutbol çempionatları keçirilir. Eyni zamanda, klublar üçün beynəlxalq, qitəmiqyaslı turnirlər və milli komandaların iştirakı ilə Avropa və Dünya çempionatları təşkil olunur.

**DÜNYADA MİNİFUTBOLUN İNKİŞAF YOLU**

Minifutbolun vətəni Cənubi Amerika sayılır. Futzalla paralel inkişaf yolu keçən bu idman növü ötən əsrin 30-cu illərində Braziliya, Argentina, Uruqvay, Çili, Paraqvay kimi ölkələrdə populyarlıq qazanıb. İlk turnirlər də okeanın o tayında təşkil olunub.

Avropada minifutbolun təşəkkülü isə İspaniya və Portuqaliyanın adı ilə bağlıdır. Lakin "köhnə qitə"də bu idman növünün inkişaf yolu elə də hamar olmayıb. Düzdür, 1972-ci ildə UEFA-da minifutbol komitəsi yaradılıb. Lakin həmin komitə cəmi dörd il fəaliyyət göstərə bilib. Sonradan FIFA bu idman növü ilə bağlı müəyyən addımlar atmağa cəhd göstərib. Bu zaman isə Ümumdünya Minifutbol Federasiyası ilə ali futbol qurumu arasında qarşıdurmalar yaranıb. Hətta FIFA minifutbolun adında futbolun işlədilməsini qadağan edib.

Minifutbol Avropada 1996-cı ildə rəsmi status alıb. O vaxta qədər qeyri-rəsmi formatda müxtəlif turnirlər, çempionatlar keçirilib. Hazırda minifutbolun çiçəklənmə dövrünü yaşadığını söyləsək, yanılmarıq. Artıq UEFA-nın 55 üzvündən 50-si bu idman növü üzrə yarışlarda çıxış edirlər.



## MİNİFUTBOLA ŞÜBHƏLƏR VƏ REALLIQLAR

Son illərdə minifutbol hər nə qədər məşhurlaşsa da, bir çox azarkeşlər hələ də bu idman növünə müəyyən şübhə ilə yanaşırlar. Azərbaycan, Qazaxıstan kimi böyük futbolda bir o qədər də güclü olmayan ölkələrin "balaca futbol"da uğurlar əldə etməsi belə iddiaların yaranmasına səbəb olub ki, aparıcı futbol ölkələri, xüsusən Avropa təmsilçiləri bu idman növünə ciddi yanaşmırlar. Lakin reallıqda vəziyyət fərqlidir. Son dünya çempionatında yaşananlara baxdıqda Avropada minifutbolun populyarlığının get-gedə artdığı bəlli olur.

Bu il dünya çempionatının yarımfinal mərhələsinə vəsiqə qazanan bütün yığmalar Avropanı təmsil edib. Üstəlik, son Avropa çempionatının dörd yarımfinalçısından üçü - Azərbaycan, Qazaxıstan və Rumıniya mundialda da ən güclü dörd yığma arasına daxil olub. Halbuki son illərə qədər minifutbolda üstünlük Amerika qitəsinin tərəfində idi. Belə ki, Meksika, ABŞ və Braziliya hegemonluq edirdi. Amma Avropa ölkələrində bu idman növünə marağın artması vəziyyətin dəyişməsi ilə nəticələnib. Artıq bir çox Avropa ölkələrində minifutbol üzrə ölkə çempionatları sponsor müqavilələri baxımından peşəkar hesab edilən futzalı və çimərlik futbolunu geridə qoyub.

Eyni zamanda, keçmiş peşəkar futbolçuların bu idman növünə axın etməsi, minifutbolun Amerika qitəsi ilə müqayisədə daha çox peşəkarlaşması Avropa yığmalarının inkişafına səbəb olub. Məsələn, tək Fransada son üç ildə bu idman növünə 40 milyon avrodan çox yatırım edilib. Bəzi ölkələrdə isə sırf minifutbolla məşğul olan menecerlər, skautlar belə var.

Sevindirici məqamdır ki, Azərbaycanda minifutbolun bir idman növü kimi həm özünün, həm izləyici potensialının böyük olması tez nəzərə çarpdı. Ölkəmiz qısa müddət ərzində bu idman növünün liderlərindən birinə çevrilib.



## AZƏRBAYCANDA MİNİFUTBOL

Azərbaycan minifutbolda yüksək inkişaf səviyyəsinə malik ölkələrdəndir. Xüsusən son illərdə həvəskar futbola marağın artması ilə minifutbolda da yüksəliş yaşanıb. Lakin bu idman növünün ölkəmizdə kökləri qədimə söykənir. Hələ 1960-cı illərdən Bakıda minifutbol turnirləri keçirilib. 80-ci illərin ikinci yarısından isə Azərbaycan komandaları SSRİ-də təşkil olunan turnirlərin iştirakçısı olublar. Bir çox məşhur futbolçularımız böyük futboldakı karyeralarını başa vurduqdan sonra minifutbolda Azərbaycanı təmsil ediblər. Bu siyahıda İsgəndər Cavadov, Rafiq Əlizadə, Vaqif Sadıqov kimi adları qeyd etmək olar. Müasir dövrə gəldikdə isə, Azərbaycan minifutbol millisi hazırkı Avropa çempionudur. Yığmamız 2022-ci ildə Slovakiyanın Koşitse şəhərində keçirilən qitə birinciliyində hamını qabaqlamağı bacarıb. Komanda bu il Birləşmiş Ərəb Əmirliklərində keçirilən və bir neçə gün əvvəl başa çatan dünya çempionatında isə dördüncü yeri tutub.